## Tuncər Cücənoğlu

cucenoglutuncer@gmail.com
tcucenoglu@hotmail.com

http://www.tuncercucenoglu.com/


# QIZILİRMAQ

## (Kızılırmak)

### (Musiqili tamaşa)

### 2 hissədə

**Türkçe'den Azerice'ye çeviren: Rasim Karaca**

## KİŞİLER:

**Hüseyn** – Oba bəyi. 70 yaşlarında

**XƏDİCƏ** – Qızı. 18 yaşlarında

**Zəhra –** Arvadı. 25 yaşlarında

**Şaban** – Koxa. 35-40 yaşlarında

**Əli ağa** – Varlı bir ağa. 70 yaşlarında

**Məhmət** – Oğlu. 25 yaşlarında

**SƏLİM** – Çoban. 25 yaşlarında

**Qaraqoyun** – Sürüdən bir qoyun

**1-ci qoca-**

**2-ci qoca-**

**3-cü qoca-**

**1-ci adam**

**2-ci adam**

**Uşaq**

**Sürü –** (*uşaq, qadın və kişilər başlarını, kürəklərini örtən qoyun dərilərinin altında, sanki dörd ayaq üstündədirlər. Qadınlardan bəzilərinin üzü örtülmüşdür*).

**İki çoban köpəyi** (*iki güclü, qüvvətli, dəliqanlı, başlarını və kürəklərini örtən köpək dərisinin altında, sanki dörd ayaq üstündədirlər*).

**Oba xalqı, Yoxlamalar** və b. (*Eynilə sürü qiyafəsində*)

**Zaman**: 1870-ci illər

**Yer**: Anadolu

**Mövsüm**: Baharın sonu, yazın başlanğıcı.

## BİRİNCİ BÖLÜM

**Yaylaq**

(*Sürü otlamaqda…*

*İki ÇOBAN KÖPƏYİ, iki tərəfdən sürüyə göz qoymaqda…ÇOBAN SƏLİM, sürüyə nəzarət edə biləcəyi bir yerdə oturmuş, düşünməkdədir. Uzaqlardan, axmaqda olan Qızılirmağın çağıltısı gəlməkdədir. Hava tutqundur…)*

(*Səhnədəkilər:*)

**Qızılirmaq Türküsü 1**

Yerdən, göydən, dağdan-daşdan,
İldırım kimi enərik
Kiçik sularla böyüyüb
Qızılirmağa vararıq.

Ardımızda tariximiz
Türkülərlə gəlirik
Axarmı irmaq tərsinə
Dəryalara da vararıq!

«Sayılmarıq barmaq ilə
Tükənmərik qırmaq ilə»
Bərabərlik olsun deyə
Zülümləri aşmazmıyıq?

Bəndlər yapıb bu axışı
Qolay deyil durdurmaq?
Yatağını qazımaqmı
Bu axışı durduracaq?

Zaman-zaman yenilsək də
Umudumuz tükənməz
İrəlləyən tarixik biz!
Məqsədimizdir dəniz!

Unutmayın a dostlar
Dənizlərə varacağıq!
Savaşsız və istismarsız
Bir dünyanı quracağıq!

(*ÇOBAN SƏLİM tütəyini çıxarıb yanıqlı bir havanı çalmağa başlayır... Şimşək çaxır… Uzaqlarda göy guruldayır. Sürü döyükməyə başlayır. Sürünün döyükdüyünü görən köpəklər diqqət kəsilirlər… QARAQOYUN düz önündə, üz-üzədir SƏLİMlə… sanki tütəyi dinləməkdədir…*)

SƏLİM (*Tütəyi yerə qoyur… Havanın pozulduğunun fərqində deyildir. QARAQOYUNa üz tutaraq)* – Sən bir Qaraqoyunsan! Bu böyüklükdə sürüdə rəngi ayrı tək qoyunsan. Mənə kömək etməlisən… Söylə Qaraqoyunum söylə! Çarəsini söylə! Necə çıxacam bu işin içindən?

QARAQOYUN Məəəə…

**QARAQOYUN ŞƏRGİSİ**

Mənim adım Qaraqoyun
Fərqli olmaq çətin oyun
Vaxtı gəlir söyülürəm
Mən sürümdən atılıram!

Vaxtım çatır yeyilirəm
Rəngə görə soyuluram
Vaxtı gəlir döyülürəm
Mən sürümdən atılıram!

Yalana qarşı çıxaram
Düşündüyümü söylərəm
Doqquz kənddən qovularam

Mən sürümdən atılaram!

Doğrulardan əl çəkmərəm.
Tərəfsizliyi seçmərəm
Aydınlığa varmaq üçün
Qaranlığa göz yummaram!

Həqiqətdir mənim yolum
Məqsədimdir insan soyum
Birlikdədir güc, bilirəm
Mən sürümdən atılaram!

Hər an sevgiylə doluyam
Əzilənlərin quluyam
Haqlı sabahlar üçün
Dönüb sürümə qatılaram!

(*Şimşək çaxır… Göy gurultusu daha yaxındadır sanki.*)

SƏLİM Yağış yağacaq, Qaraqoyun!

QARAQOYUN Məəəə!

(*Səlim sürünü bir yerə yığmağa çalışır. Köpəklər mırıldayaraq kömək etməyə çalışırlar…)*

SƏLIM (*Sürüyə*) – Yağış başlayacaq!... Çevik olun!

QARAQOYUN Məəəə…

*(Qaraqoyun sürünün içinə girir… Sanki daha çevik toplanmaları üçün cəhd göstərir… Əvvəlcə şimşək çaxır, arxasınca şiddətli bir göy gurultusu… düz başlarının üstündə. Sürü təlaş içərisində. Səlim dağılmalarına mane olaraq sürünü aparmağa çalışır. Şimşək çaxır, ildırım düşür, göy gurultusu dözülməzdir… Sürü artıq çılğın kimidir… Köpəklər, Səlim və Qaraqoyun dağılmalarını əngəlləyərək sürünü aparmağa cəhd göstərirlər…)*

SƏLİM Dağılmayın! Dağılmayın! Tələf olacaqsınız! Dağılmayın! (*Köpəklər kənara qaçanları gətirməyə çalışırlar… Qaraqoyun çarəsiz gəlir Səlimin yanına… Səlim tütəyini çıxarır, üflətməyə başlayır… Şimşək, göy gurultusu, xəfif-xəfif başlayan yağmur… Tütək səsini duyan sürü sakitləşir… Yavaş-yavaş toparlanmağa başlayır… Yağmur gücləndikcə qoyunlar bir-birilərinə daha da sıxılmaqdadırlar… sanki güclü və təsirli tütək səsi birləşdirmişdir sürünü… Sürü yağmura, şimşəklərə və göy gurultusuna qarşı büzüşərək tək mərkəzdə cəmlənmişdir… Qaraqoyun sürünün içində mələyərək dolaşmaqdadır… Sürü sanki sehrlənmiş kimidir… Səlim tütəyini çala-çala yürüməyə başlayır… Sürü böyük bir nizamla Səlimin ardınca yeriməkdədir… Köpəklər və Qaraqoyun itaətkar sürüylə birlikdə Səlimin ardınca getməkdədirlər… Şimşəklərə, göy gurultusuna, ildırımlara qarşı yürüməkdədir sürü…)*

**Çadırın içi**

(*Xədicə yun əyirməkdə… Zəhra həsrətlə düşünməkdə… Zəhra sanki yağmur-dan qorxmaz kimi, həyəcanla nəfəs almadqa…)*

ZƏHRA Səhərdən bəri oturmusan!

XƏDİCƏ Nə qayırım, ana?

ZƏHRA Gözün çıxsın! Sənə demədimmi mənə ana demə! Aramızda neçə il var? Olsa-olsa bir-iki il… Mən sənin dədənə arvad oldum, sənə ana olmadım…

XƏDİCƏ Bir daha demərəm, ana!

ZƏHRA Ay qız, mənim acığıma deyirsən?

XƏDİCƏ Ağzımdan çıxdı!

ZƏHRA Bacı de mənə, eşitdin, bacı!

XƏDİCƏ Yaxşı, bacı…

ZƏHRA Bir də ana dediyini eşitsəm… and olsun, dədənə çırpdıracağam səni! Başa düşdün? Eşitmirsən, qız? Dədən qayıtsın qəsəbədən, döydürəcəm səni bu gecə!...

(*Tütək səsi… Xədicə əlindəki yunu atır… Zəhra və Xədicə əvvəlcə Səlimin, ardından da sürünün keçdiyini görürlər. Zəhra Səliməə vurğunluqla baxmaqda, Xədicə yerindən qalxır…)*

XƏDİCƏ Bacı!

ZƏHRA (*Fikri Səlimdə*) Nə var?

XƏDİCƏ *(vaz keçir*) Yox, heç bir şey…

ZƏHRA Var… Pal-paltar nooldu?

XƏDİCƏ Yuya bilməmişəm hələ…

ZƏHRA Nəyi gözləyirsən daha?

XƏDİCƏ Yağışın kəsməsini…

*(Səssizlik. Zəhra düşünür… Süd çanağına dikilir gözü… Oturur… Səbirsizcə su çanağına baxmaqdadır… Birdən ayağa qalxır.)*

**Ağıl**

(*Sürü ağıla yerləşməkdə… Köpəklər girişi tutmuş… Dışarıda yağmur sürməkdə… Arada bir şimşək və göy gurultusu… Səlim ağıldakı ibtidai sobanın odunlarını yandırır, üstündəki yapıncını və bəlkə də köynəyini çıxarır, qurulamağa çalışır… Xüsusilə saçlarını qurulamaqdadır Səlim… Zəhra əlində süd çanağı ilə ağıla girir… Köpəklər heç səs çıxartmırlar, əksinə sırnaşırlar Zəhraya…*

*Çünki o, Hüseyn Ağanın gənc arvadıdır… Bütün həyatı bircə kəlmə sözünə bağlıdır…*

*Zəhra Səlimi ehtirasla izləyir… ancaq Səlim fərqində deyildir Zəhranın…*

*Qaraqoyun mənalı-mənalı baxmaqdadır Zəhraya və Səlimə.*)

(*Zəhra:*)

**VURĞUNLUQ**

Bulud gəlir para-para

Dördü bəyaz dördü qara
Sən açdın sinəmə yara
Tapılmaz dərdimə çara!

Ah, bu nə cür sevgi rəbbim,
Səlimi yanımda istərim!

Bulud gəlir salxım-saçaq
Böyrümə soxdular bıçaq!
Mənə yalan sənə gerçək
Səbəb olan mövladan çək!

Ah, bu nə cür sevda rəbbim,
Səlimi qolumda istərim!

Bulud buludun üstünə
Bulud dağların üstünə
Bulud allahı sevirsən
Qonma Səlimin üstünə!

Ah, bu nə vurğunluq rəbbim,
Səlimi qoynumda istərim!

*(Səlim başqa biri tərəfindən göz qoyulduğunu birdən hiss edir…)*

SƏLİM Buyur bacı

ZƏHRA Süd sağacağam, SƏLİM.

SƏLİM İndi vaxtı deyil, bacı…

ZƏHRA Məni əsəbləndirirsən…

SƏLİM Nəyə görə?

ZƏHRA Mənə bacı demə!

SƏLİM Axı ağamın arvadısan…

ZƏHRA Bacı demə!

*(Səlim başını aşağı salır… Bütün qoyunlar, köpəklər və Qaraqoyun onları maraqla izləməkdədir…)*

ZƏHRA Süd sağacam… (*Səlimin hərəkətsiz qaldığını görərək*) Mənə bir qoyun tut!... Eşitmirsən nə deyirəm? Bu sürü mənimdir… Mənim istədiyim hər şeyi etməyə məcbursan, Səlim!

*(Səlim Zəhranın arzu dolu baxışlarına laqeyd deyildir…*

*Bir müddət oğrun-oğrun baxır Zəhraya. Sonra özünü sürüyə toxuyur… Qoyunlardan birini tutub gətirir ortaya… Zəhra arxasına keçir qoyunun… Çanağı yanına çəkir… Süd sağır… Arada bir şəhvətlə Səlimə baxır*)

ZƏHRA Qoyma dəbələsin…

SƏLİM Tutmuşam bacı!

ZƏHRA (*Çımxırır)* Mənə bacı deməəə!

SƏLİM (*Üstünə çımxırması qüruruna toxunur. Üzünü bozardır*) Yaxşı bəs nə deyim!

ZƏHRA Adımı de! Zəhra de mənə!

SƏLİM Ağamın arvadını adıyla çağırmaq yaraşarmı?

ZƏHRA (*Səsi titrər*) Hər kəsin yanında yenə də bacı de… Ancaq təklikdə Zəhra de mənə… (*Zəhra da artıq qala bilməz, süd çanağını aşırıb ayağa qalxır…*

*SƏLİMlə üz-üzə durur… Tutur, silkələyir Səlimi)*

ZƏHRA (*sanki hər şeyi ölçüb-biçmişdir. Qətiyyətlə*) Gözün görmür məni? Üzümə bax! Üzümə! Üzümə! Bax! Yoxsa qorxursan məndən? Söylə, qorxursan? (*Dişlərini sıxaraq danışır*) Istəmirsən məni? Canın istəmir məni? (*Köynəyini sıyırıb döşlərini göstərir)* Sən məndən qorxursan? Yoxsa sənin haqqında söylənənlər doğrudur, Səlim?

SƏLİM (*Səsi titrəyir*) Nə söyləyirlər?

ZƏHRA (*Küyə basır)* «Səlim erkək deyil» deyirlər… «Boy-buxununa baxmayın, qadınlarla maraqlandığı görünməmişdir»… deyir hər kəs…

SƏLİM Yalan! Kim söylədisə yalan söyləmişdir…

ZƏHRA Yalan olduğunu sübut elə.

SƏLİM Necə?

ZƏHRA Mənim canım istəyir səni… Bax, bu dibə çəkilək Səlim… Yıx məni ora… (*Səlimin bədəninə sürtünür)* Çıx üstümə! Erkək olduğunu sübut elə…

SƏLİM *(Özünü qadının əlindən qurtarmaq istəyir)* Hüseyn ağanın arvadısan…

ZƏHRA Nə olsun ki?

SƏLİM Axı o mənim ağamdır… Məni çoban seçmişdir.

ZƏHRA Axmaq!

SƏLİM Ona qarşı mən bunu necə edərəm?

ZƏHRA Ağan 70 yaşındadır!...

SƏLİM Ancaq…

ZƏHRA Mən iyirmi beş… Taylı tayını tapmalı… məni başa düşürsən, SƏLİM! Alışıb yanıram Səlim!

SƏLİM (*kəskin)* Ağamın arvadısan!

ZƏHRA *(Hirslənir… Süd çanağını alıb çıxarkən) Heyvərənin biri, heyvərə.*

*(Səlim bir müddət susur… Sürüyə, köpəklərə baxır… Maraq dolu gözlərlə izləməkdədirlər. Səlim Qaraqoyuna yanaşır…)*

SƏLİM (*Digərlərinə)* Hər kəs öz işinə gücünə baxsın! *(Qaraqoyunla bir az da uzaqlaşırlar digərlərindən… sanki dərdləşməkdədirlər)* Ah Qaraqoyunum, ah! Bu nə işdir düşdüm, Qaraqoyunum? Əvvəllər uzaqdan baxardı yalnız… Artıq indi əməlli-başlı pərvazlaşdı… Halbuki mən Xədicəyə aşiqəm… Mən Xədicəylə baş-göz olmanın yollarını axtarmaqdayam… Bu tərəfdən də analığı mənimlə yatmanın yollarını axtarır… Bir də ki, bu Zəhra gözəl qadındır… Dözmək olmur Qaraqoyunum… Hansı erkək xeyr deyə bilər belə bir qadına? Istəmirəm mi onu? Yatırmaram mı buraya? Girmərəm mi içinə? Im-isti? Həm də sübuta yetirmərəm mi erkəkliyimi? *(Susur… Qətiyyətli*) Qaçın yanlış düşüncələr, gedin başımdan! Tövbə dedim Tanrım… Söylədiklərimi eşitmiş ol… Bu nə oğraşlıqdır… Çörək verənə xəyanət deyilmi bu? Bəs sabah, o biri gün Xədicəylə aramda olanları eşidəndən sonra nə deyəcək bu Zəhra qadın? Əngəl olmayacaqmı bizə?

(Qaraqoyuna) Bir yol göstər Qaraqoyun! Xədicəni istəyəndə nə olacaq Zəhra qadının cavabı? Söylə Qaraqoyun, söylə… Çarəsini söylə!

Qaraqoyun *(əlimizdən nə gəlir deyirmiş sayağı)* Məəəəəəə!

*(Səlim:)*

**KOR DÜYÜN**

Xədicəni almaq üçün
Verdiyim bu savaş bəlli
Sevərkən bir gözəli
Ikincisi olurmu ki?

Aman Tanrım necə edəm
Şeytanı içimdən atam?
Sevərkən bir gözəli
O birinə necə baxam?

Arzularım oyanır,
Ağlım başımdan gedir,
Xədicəni düşünərkən,
Zəhra qarşımda durur!

Zəhra, Zəhra get önümdən!
Xəyanətdir bunun adı!
Bilmirəmmi xəyanətin
Necə olur axırı!

Yardımçı ol Tanrım mənə!
Şəhvətimi söndür mənim!
Xədicənin sevgisi
Yetsin mənə, yetsin mənə!

(*Səssizcə girir Xədicə... Əlində yuyacağı kirli paltarların boxçası. XƏDİCƏ ağlamaqda…*)

SƏLİM Sənə nə olub Xədicə?

XƏDİCƏ Dözə bilmirəm artıq…

SƏLİM Yenə Zəhra?

XƏDİCƏ Başqa kim ola bilər ki?

SƏLİM Neynədi gənə?

XƏDİCƏ Yerli-yersiz sancır məni! Bir günahım olsa heç ürəyimi sıxmaram… İkidə-bir məni dədəmə döydürür.

SƏLİM Ağlama! Bir az daha səbr et… Bir çıxış yolu tapacağıq, elə deyilmi, Qaraqoyun?

QARAQOYUN Məəəəəə!

SƏLİM Bax, eşitdin? Qaraqoyun belə «hə» deyir…

XƏDİCƏ Götür qaçır məni burdan.

SƏLİM Hara qaçırdım Xədicə? Belə bir cavabdehliyin altına girə bilmərəm… Çobanlıqdan başqa bir şey gəlməz əlimdən… Ac-yalavac qalmağı istəmirəm. Sən acı çəkiməyin nə olduğunu bilirsən, ancaq ac qalmağın nə olduğunu yox! Səni yaxşı saxlaya bilməsəm mənə olan sevgin yox olub gedər…

XƏDİCƏ Olmaz Səlim… Yetər ki, sənin yanında olum… Hər şeyə razıyam.

SƏLİM Sən bir ağa qızısan Xədicə… Dilin indi belə deyər, amma vəziyyət dəyişəndə başqa cür düşünərsən.

XƏDİCƏ Ağa qızı olduğuma görəmi mənə elçi düşmürsən?

SƏLİM Hə. Dədən verməz səni mənə!

XƏDİCƏ Nə bilirsən verməyəcəyini?

SƏLİM Verməz.

XƏDİCƏ Verər… Çünki o mənim dədəmdir… Çünki dərd çəkməyimi istəməz… İlk kim istəsə verəcəkdir dədəm… Eşitmədin nə dedim? Daha artıq analıq əlində əziyyət çəkməyimi istəməyəcinə görə verəcək məni sənə…

SƏLİM Elə anan olduğu üçün verməz…

XƏDİCƏ Analığım illah məndən canını qurtarmaqdan ötrü verilməyimi istər.

SƏLİM Analığın olmayaydı bəlkə də sənin dediklərin olardı.

XƏDİCƏ Anlaya bilmirəm, Səlim!

SƏLİM Istəməz dedim, istəməz!

XƏDİCƏ Nəyə görə?

SƏLİM (*Duruxur)* Nəyə görəsini bilmirəm, ancaq istəməyəcəyini bilirəm! Səbəbini nə sən soruş, nə də mən söyləyim? Istərmi, Qaraqoyun? Söylə istəyərmi?

QARAQOYUN Məəəəə!

SƏLİM Bax istəməz deyir…

XƏDİCƏ Ancaq bir səbəbi yoxdur ki!

SƏLİM Yoxdur?

XƏDİCƏ Üstəlik məndən canını qurtarmaq istəyir.

SƏLİM Sən elə bil…

XƏDİCƏ Yəni qurtulmaq istəmirmi məndən?

SƏLİM Istəyir. Ancaq belənçi bir qurtuluş deyil istədiyi.

XƏDİCƏ Elə isə? Qaraqoyun bilir bəlkə. Sor.

SƏLİM Səbəbini söylə, Qaraqoyun!

QARAQOYUN Məəəəə… Məəəəəə…

SƏLİM (Bir az düşündükdən sonra) Xədicə ağa qızı, Səlim yoxsul bir çoban… Varlıyla yoxsulun birləşməsi mümkün deyil deyir…

XƏDİCƏ Mənim dədəm varlı bir adam deyil ki… Ən azından indi… Varlı olsa nə işi var Əli Ağanın yanında? Bilirsənmi Qarqoyun, dədəm Əli Ağaya olan borcunu uzatmaqdan ötrü getdi qəsəbəyə… Bunlar hamısı bəhanədir, Səlim… Yoxsa sən məni istəmirsən?

SƏLİM Bu Xədicə ağlını itirib Qaraqoyunum… Bunları ağlına necə gətirir? Nələr quraşdırır? Bilmirmi onun üçün alışıb-yandığımı? Bilmirmi hə? (*Səlim Xədicəyə sarılır… Xədicə də ona…*)

*( Xədicə:)*

**SEVDAM**

Sən bir dəniz
Mən bir balıq
Suyunu götürüb
Gedərsənmi?

Sən bir orman
Mən bir dovşan
Vurulmuşam
Gizlərsən mi?

Sən bir ovçu
Mən bir maral
Yaxdın canı
Qaçarsanmı?

Mən bir irmaq
Sən bir qayıq
Üzə çıxdın
Batarsanmı?

Sevdiyimsən
Səhralarda
Bu dağları
Aşarsan mı?

Uca dağsan
Təpələrdə
Alıb məni
Yatarsan mı?

(*Yaxınlaşan bir atın nal səsləri eşidilir... Xədicə ağılın qapısına tərəf qaçır... təlaşla kirli camaşır torbasını götürür...)*

SƏLİM Kimdir o Xədicə?

XƏDİCƏ Başı batmış Koxa… sözümüz bir olsun ha, Səlim. Mən buraya analığımı soruşmağa gəldim…

SƏLİM Yaxşı…

*(Xədicə dışarıya çıxaçıxda Şaban girir içəriyə)*

ŞABAN Salamunaleyküm.

SƏLİM Əleykümsalam…

*(XƏDİCƏ çıxır)*

SƏLİM (*Səmimiyyətlə)* Xeyir olsun Şaban Koxa?

ŞABAN Axşama qonaqlar gələcək, iki quzu ayır…

SƏLİM Baş üstə Şaban Koxa… Kimlər gələcək?

ŞABAN Əli Ağa ilə oğlu Məhmət… Ancaq Hüseyn ağam bütün obanı çağırmağımızı istədi… Genə də sən işini ehtiyatlı tut! Bəlkə üç quzu kəssən daha yaxşı olar. Bilirsən əskik olsa ağam hirslənər…

SƏLİM Onsuz da cəmi dörd quzumuz var.

ŞABAN Zərəri yoxdur üçünü kəsək.

SƏLİM Baş üstə…

*(Sürü çaxnaşır... Köpəklər mırlayaraq sürünün içinə doluşur.)*

ŞABAN Nə işi vardı burda?

SƏLİM Analığını soruşdu. Elə getmək istəyirdi ki…

ŞABAN Mənə kəf gəlmə. Yanlış bir iş görmə, Səlim…

SƏLİM: Mən ona yan gözlə baxa bilmərəm…

ŞABAN Demirəm ki, baxarsan. İçəri olduqca istidir… düzdür, bayırda yağış yağır, ancaq yaz yağışı… Kəsilən kimi, günəş buluddan sıxar çıxmaz, beş dəqiqədə torpaq yenidən quruyar… Hətta çatlayar… Bilirsən, buraların istisi dözülməzdir SƏLİM… Atəş adamın ağlına bilirsən nələr gətirər? Xədicə də dəliqanlı qız… Sən od o barıt, yan yana dura bilərmi?

SƏLİM Mən yanlış hərəkət etmərəm, ağam, arxayın ol… (*Mövzunu dəyişdirir)* Hər halda borc sonraya saxlanıldı.

ŞABAN Hardan bilirsən?

SƏLİM Yoxsa Hüseyn ağam bu gün obaya ziyafət verərmi, Şaban ağam?

ŞABAN Sonraya saxlandı! (*Çıxarkən)* Oynama. Əlini çevik tut! (*Şaban çıxır.) (Sürü:)*

**SÜRÜNÜN TÜRKÜSÜ**

Doğuyoruz, doymuyoruz!
Ancaq biz də yaşıyoruz!
Danışarkən susuyoruz!
Belə getməz biliyoruz.

Zopa ilə mindirirlər!
Ac saxlayıb sındırırlar!
Düşüncəni susdururlar
Belə getməz biliyoruz!

Olmaz desək sıxışırlar!
Sillə, yumruq girişirlər!
Haqqımızı bolüşürlər!
Belə getməz biliyoruz!

Əngəlləri aşmaq üçün
Barışa qovuşmaq üçün
Birləşməkdir bunun yolu
Belə getməz, biliyoruz!

SƏLİM (QARAQOYUNa) Üç quzu seçməliyik! Nə edək? Hansıları seçək? *(QARAQOYUN üzgün baxır…)*

SƏLİM (Üzüldüyünü anlayır.) Başqa yolu yoxdur! Ağamızın, buyruğudur… Kömək et mənə… Dayanma!

*(SƏLİM sürüyə baxır… Gözləri ilə quzuları aramaqdadır…*

*QARAYOQUN da sürüyə baxır…*

*Quzulardan birinin anası onu gizlətməyə çalışır.*

*SƏLİM vəziyyətin nə yerdə olduğunu anlayır. Digər qoyunları iki əli ilə ayıraraq özünə yol açır və anasının yanından quzunu tutmaq istəyir…*

*Ana qoyun dirənir, Səlimə əngəl olur… Az qala itələsinlər… Zorla da olsa SƏLİM quzunu anasının yanından qopardıb sürüdən ayırmağa çalışır… qüzü da dirənməkdədir.*

*Səlim quzunu sürükləyərək apardığı sırada qoyunlar yolunu kəsməyə çalışırlar…*

*İKİ KÖPƏK o saat irəli cumub qoyunları qısnayırlar, SƏLİMin yolunu açırlar… Səlim quzunu bir az o tərəfə aparır. Əvvəlcə ayaqlarını bağlayır… Sonra da gözlərini qara bir bezlə qaradır… Səlim yenidən yanaşır sürüyə… Biri sısqa, digəri tombul iki quzu analarının arxasında gizlənməyə çalışır…*

*Hər iki quzu qorxu içindədir…*

*Səlim tombul olanı görür… Yanına yaxınlaşmağa çalışır… Amma, heyhat, digər qoyunlar əngəlləşməkdədir Səlim!...*

*Yenə iki köpək girir araya… Yolu açırlar…*

*Səlim irəliləyir və çatır iricə olan quzuya…*

*Tutur, dəbələnməsinə baxmayaraq qucaqlayır və o birisinin yanına gətirməyə başlayır… Səlim tarazlığını itirib yıxılır… Qoyunlar hamısı birlikdə gülür…*

*Quzu qaçarkən qoyunlar aralanıb yol verir…*

*Səlim yenidən hərəkətə keçir… Qoyunların gülüşməsi bir anda xırp kəsilmiş, acı bir iniltiyə və bağırtıya dönmüşdür…*

*Səlim gözləriylə iri quzunu ararkən tam bir səssizlik hakim olur…*

*Səlim cılız olan quzunu görür… Lap az qalmış fikrindən daşınır, yenə də kök quzunu axtarmağa başlayır…*

*Tapa bilmədikcə hirslənir…*

*Qaraqoyun Səlimin öfkələndiyini görür.*

*Yalnız baş verənləri müşahidə etməklə qalmayıb, Səlimə yaxınlaşır…*)

QARAQOYUN Məəəəəə! Məəəəəə!

SƏLİM Ələ salıblar məni…

QARAQOYUN Məəəə! Məəəəə!

*(SƏLİM iri quzunu görür… Bir az yumşalmış, öfkəsi yatmışdır sanki… Səlim köpəklərin də yardımıyla quzuya çatır… Quzu geriyə çəkilib və bir küncə qısılıb…*

*Səlim bu dəfə heç tərpənməyən quzunu iki əlli qamarlayıb qaldırır və səssizcə yerdə çabalayan o biri quzunun yanıa gətirir… Ilkin ayaqlarını, sonra da gözlərini bağlayır… Quzu bir-iki dəfə dartınıb sonra vaz keçir çırpınmaqdan…*

*Yalnız başını qaldırıb, sonaki gözbağının altından baş verənləri izləməyə çalışır…*

*Səlim yenidən qoyunların yanına gəlir…*

*Qəribədir, artıq müqavimət sona çatmışdır sanki…*

*Qoyunlar çarəsizliklə aralanırlar və öz xoşlarına sısqa quzuya qədər olan yeri boşaldaraq Səlimə yol verirlər…*

*Səlim yeridikcə qoyunların gözündə nifrəti görür… Əyilib götürür sısqa quzunu, heç bir müqavimətə rast gəlmədən o birilərinin yanına aparır…*

*Könülsüz-könülsüz bağlayır ayaqlarını… Sonra gözünü bağlayır…*

*Səlim qoyunların yanına qayıdır…*

*Dışarıda yağış kəsmişdir…*

*Birdən içəriyə günəş işıqlarının aydınlığı girir…*

*Demək ki, günəş buludlardan qurtulub… Axırda yaz yağışı tez keçmişdi… Səlim də hüznlü eynilə sürü kimi… Qaraqoyun kimi suçlayacağını bilmirmiş kimi gözünü hamıdan qaçırır…*

*Səlim qutudan bıçaqları çıxarır… Sanki qoyunlar görməsin deyə gizlətməyə çalışır, quzuların yatırıldığı yerin arxa tərəfinə aparır bıçaqları…*

*Bıçaqların işıltısı qoyunları yenidən çaxnaşmaya salır…*

*Qoyunlar inləməyə başlayırlar, ancaq yeknəsəq… Qaraqoyun hərəkətsiz dayanıb.*

*Iki Köpək yenə də sürünün önünü kəsib, hər ehtimala qarşı…*

*Səlim sürüyə heç baxmadan ilk seçdiyi quzunu götürür… Quzu sanki başına nə gətiriləcəyini anlayıb acı-acı mələyir…*

*Səlim və quzu gözdən itirlər…*

*Qoyunların inləməsi kəsilir…*

*Yalnız bayaqkı quzunun mələməsi…)*

SƏLİM (*Səsi)* Bismillah!...

(*Sonra boğuq bir mələmə… Səssizlik… Səlim yenidən gəlir…*

*İri quzunu götürür…*

*Quzu dirənməkdə, dəbələnməkdə və acı-acı mələməkdə…*

*Səlim quzunu aparır…)*

SƏLİM (*Səsi)* Bismillah!...

(*Səlim yenidən döndükdə cılız quzu qorxu içərisində ağlayır…*

*Sanki gücü tükənib… Ürək çırpıntıları başına vurmuş kimi aramla başını oynadır… Səlim çıxır…)*

SƏLİM (*Səsi*) Bismillah!

(*Bir-iki inilti səsi gəlir bayırdan… Ən asan onun işini bitirir Səlim… Yenidən girir içəriyə… Gəlir, sürünün yanına yaxınlaşır. Qaraqoyunun gözlərinə baxmamağa çalışır…*)

*(QOYUNLAR:)*

**QUZULARA AĞI**

Quzunu quzuya çatdım
Örkəni üstünə atdım.
Atamadım quzum səni,
Qanlı cəllada satdım!

Qaraquş dönər havada,
Balasın qoymaz yuvada.
Ora gedək göz bəbəyim,
Bir könlüm Qızılirmaqda.

Göydə bulud qar havası
Yala yayılar quzusu
Içini çəkib ağlar
Bəbənin yoluq mayası

Quzum məni dəli eylər,
Qarşı yaldan əl eylər.
Quzumun yuxusu gəlib,
Gəl də məni bələ deyər.

Qaraqoyun, qaraqoyun!
Cigərinən olmaz oyun!
Mələyərmi mənim kimi,
Quzusun itirən qoyun?

Bu oyunu kimlər qurar?
Bu düzəni kimlər düzər?
Dəyişməzmi bu yazılar?
Qan qoxmasın bu torpaqlar!

*(Qoyunlar sözü bir yerə qoymuş kimi Səlimə arxalarını çeviriblər)*

SƏLİM (*Qaraqoyuna*) Elə bilirsən mənim ürəyim ağrımadı? (*Qoyunlara)* Elə bilirsiniz mənim ürəyim sızıldamadı. Qanun belədir, mənim əlimdən başqa nə gəlir ki?

(*Səssizlik…*

*Ancaq Səlimin də gözündən yaşlar axmaqdadır səssizcə…)*

**Hüseyn Ağanın Çadırının içi**

(*Günəş yandırıb yaxır… Hava həddən artıq isti. Əvvəlcə Zəhra, dalıyca Şaban girirlər içəriyə.)*

ZƏHRA Hər kəsin yanında belə şeylər danışılarmı əmi oğlu?

ŞABAN Danışmadım. Sadəcə danışmaq istədiyimi dedim…

ZƏHRA Danış…

ŞABAN Ağıla girəndə Xədicə ordan çıxırdı… bunu sənə eşitdirmək istəyirdim… Guya Xədicə ağılda səni axtarırmış… elə deyirdi…

ZƏHRA Məni nəyə görə orada axtarır ki?

ŞABAN Bilmirəm… Onu Xədicədən soruşmaq lazımdır…

ZƏHRA Bax. Biz səninlə qohumuq… Buraya səni işə mən götürmədimmi?

ŞABAN Sən götürdün.

ZƏHRA Səni bura ağıllı olduğun üçün gətizdirmədimmi? Bu gün qarnın doyursa mənim sayəmdə deyilmi?.. Kimsə gördümü səndən başqa?

ŞABAN Bir mən, bir də Allah!

ZƏHRA Başqa heç kimsəyə danışma!

ŞABAN Danışmaram…

ZƏHRA Danışsan?

ŞABAN Dedim danışmaram… Zatən xam-xam oturmuşdular. Çünki özlərini yığışdırmaları o qədər də çətin olmadı.

ZƏHRA Odla barıt yan-yana dayanarmı?

ŞABAN Elə ona görə söylədim…

ZƏHRA Məni yerimdən oynatdı… Dəmdəməki, murdar! Ən çox xətrimə dəyən odur ki, məni sevmədi… Qəbul etmir… Ölmüş anasının həsrətini çəkir hər

zaman… Istər-istəməz məni onunla müqayisə edir… Bu da mənim gecəmi-gündüzümü əlimdən alır… Bircə, Allahın köməyi ilə, bu qızı uçurta bilsəydik…

ŞABAN Verək SƏLİMə qurtarsın getsin…

ZƏHRA (Hirslənir) Olmaz!... Səlim olmaz!...

ŞABAN Nə səbəbə olmaz? Bir-birilərinə də əcəb yaraşırlar…

ZƏHRA Yaraşmırlar! (Birdən) Məhməti görmədinmi?

ŞABAN Əli ağanın oğlu Məhmətimi?

ZƏHRA Hə… Bu axşam niyə təşrif gətiriblər bizə?

ŞABAN Borcunu təxirə saldığına görə… (*Gülümsəyir*) Yoxsa?

ZƏHRA Məhmət Xədicə üçün biçilmiş qaftandır…

ŞABAN Indi başa düşürəm… yaman qaniçmişsən ha Zəhra… Baxaq görək, hələ XƏDİCƏni bəyənəcəkmi?

ZƏHRA Bəyənəcək…

ŞABAN Hardan bilirsən bəyənəcəyini?

ZƏHRA Əvvəllərdə qızı görüb... Bəyənib… Istəyirdim ki, biribirilərini yenə görsünlər…

ŞABAN Bəs Xədicə?

ZƏHRA Nə deyəcək. Dədəsinin hə dediyinə nə deyə bilər Xədicə?

ŞABAN Könül fərman dinlərmi Zəhra? Bir də gördün bəyənmədi.

ZƏHRA It kimi bəyənəcək…

ŞABAN Xətrinə dəyməsin ancaq Məhmətin bir ayağı axsaqdır…

ZƏHRA Təki axsayan ayaq olsun… Məhmədin canının sağlığı Xədicəyə bəs eləyər… Boylu, buxunlu buğa kimi… Üstəlik axsaması da anadan gəlmə deyil… Deyilənlərə görə atdan yıxılıb. Bir də ki, yaddan çıxartma axsamaq yoxsula ayıbdır, varlının axsamağı da onun bir məziyyətidir… Çünki varlının nöqsanını kimsə görməz… Görsə belə dilinə gətirməz… Danışmaz… Bu iş baş tutacaq əmioğlu…

(*Bayırdan yaxınlaşan atların nal səsləri. Zəhra və Şaban çadırın qapısından baxırlar…*)

ZƏHRA Qaç, qarşıla!

(*Şaban gedir… Bir az sonra Hüseyn Ağa ilə birlikdə gəlirlər…)*

ZƏHRA Xoş gəldin bəy…

HÜSEYN AĞA Xoş gördük…

(*Keçir oturur Hüseyn Ağa. Yorğundur.)*

HÜSEYN Hazırlıq işləri görülüb qurtardı?

ZƏHRA Hə, qurtardı.

HÜSEYN Quzular?

ŞABAN Üç quzunu kəsdi Səlim…

HÜSEYN Yaxşı… Lazım olsa bir dənə də kəsərik… Borcumuzu təxirə saldı… Gərək biz də əliaçıq olaq… Sən get hazırlıq işlərinin başında dur Şaban… Xədicə də yanıma gəlsin…

ŞABAN Baş üstə ağam… (*Çıxır)*

HÜSEYN XƏDİCƏ hardadı?

ZƏHRA Nə bilim?

HÜSEYN Yenə nəsə olub?

ZƏHRA Yox canım… Bir şey olmayıb.

HÜSEYN Danış görüm…

ZƏHRA Nə danışım ki, sonra deyəcəksən ki, özümdən toqquşdururam.

HÜSEYN Indi hardadır?

ZƏHRA Iş-güc görür.

HÜSEYN (*Hirsli)* Bax ha, Zəhra! Yenə də məni özümdən çıxardırsan. Bu gün sabah ərə getməli uşağı mənə hər dəfə döydürürsən!

ZƏHRA Yəni onun heç bir günahı yoxdur, mən özümdən çıxardıram hə?

HÜSEYN Elə deyil!... (*Sakitləşir)* Ancaq bir az da özünü görməməzliyə vursan yaxşıdır… Bir-iki günün qonağıdır aramızda… Yoxsa, nə sənə, nə də mənə xətir qoyar, anam var, atam var deməz…

ZƏHRA Guya indi deyir? Bacı de deyirəm, acığa ana deyir… Mənimlə ayaq ayağa qoyur…

HÜSEYN Söz məsəli, canım… Onsuz da hardasa yaşıdsınız… Təki yanımızdan ayrılanda bizi xoş xatırlasın… Hər halda bu gün sabah uçar yuvamızdan.

ZƏHRA Sözlü adama oxşayırsan?

HÜSEYN Əli Ağa oğlu Məhməti bir xeyli təriflədi… Bütün günü elə oğlunu təriflədi…

ZƏHRA (*özünü bilməməzliyə vurur*) Bəs XƏDİCƏ istəməzsə?

HÜSEYN Nəyə görə istəməsin? Bəlkə bildiyin bir şey var?

ZƏHRA Könüldür… istəmədi istəmədi…

HÜSEYN Mənim də dediyimə XƏDİCƏ yox deyə bilərmi? Sənin dilinin altında nəsə var… Danış görüm, bu gün nə oldu?

ZƏHRA Sən soruş… «anan» kirliləri yumağa göndərəndə nələr oldu? deyə xəbər al…

HÜSEYN Sözü ağzında çeynəyib durma!... Gəlib çatdıq! Susadım! Su gətir!

(*ZƏHRA teştdən su doldurur. Gətirib uzadır ərinə... Içib qurtarmasını gözləyir. Boş bardağı alıb yerinə aparır.)*

HÜSEYN Su verənlərin çox olsun Zəhra…

XƏDİCƏ (Daxil olur) Xoş gəldin dədə… *(ZƏHRA XƏDİCƏNI görən kimi çıxıb gedir.)*

HÜSEYN Xoş gördük qızım… Yenə nə üstündə hirslənib Zəhra sənə?

XƏDİCƏ Səbəbini bilmirəm dədə… Oturduğu yerdə özündən çıxır… Ana dedin! Bacı dedin!... Yan baxdın!... Düz getdin!... Bəhanəsi nə çox.

HÜSEYN Bu belə getməz Xədicə… Bir gününüz belə didişməsiz keçmir… Onsuz da lap əvvəl gündən bir-birinizi sevmədiniz… Ən çox da sən heç sevmədin Zəhranı…

XƏDİCƏ Necə sevim dədə? Anam kimi bir anadan sonra necə sevim bir başqasını? Keşkə məni də aparaydı yanındakı qara torpaqlara?

HÜSEYN Ananın ölməsini mən istədim ki? Onun canını alan aldı. Torpaqdan gəldi torpağa getdi… Əlimdən nə gəlir ki? Kişinin dul qalması asan deyil… Bu

gün sən baxarsan mənə, deyəlim… bəs sabah necə olar? Gəlinlik qızsan… Yuvamdan uçub getsən işim bitər…

(*Hüseyn:*)

DƏRMANSIZAM

Nədir bu yaşlar kipriklərimdə?
Yaş tutmur yağışlar torpaqda.
Keçən günlər ürəyimdə qəmlənir,
Batan günəş can evimdə dəmlənir.
Bir günəşdir təpədə duran başım!
Heçliyə köçmüş yarım, yoldaşım!
Qalmamış yalan dünyada işim.
Tükənib yağım alovsuz qalmışam!
Qurumuş bulağım, çəkilmiş suyum!
İkiqat əyilib o sərv boyum!
Dağlardan, irmaqlardan keçərkən,
Əyri çomaqla yolda qalmışam!
Nə deyim, qor tutmayır atəşim!
Yetmişə uzanıb çiləli yaşım!
Payızım çəkilib, dirənib qışım!
Əzrail gələndə yastıq nəmlənir!
Odum, gücüm, dərmanım tükənib,
Gənc qız almaq da işə yaramır,
Dünyada səltənətim qalmayıb,
Sərt külək əsəndə çinar devrilir!
Xəzridən sovrulan yarpaqlar kimi
Yağmura həsrət torpaqlar kimi
Saçlarımda çoxalan ağlar kimi
Darmadağın çılpaq olmuş hallarım!

XƏDİCƏ Dədə! Sənin sözünün qabağına bir söz deməyə nə həddim var?... Yerdən göyə qədər haqlısan demək belə mənə yaraşmaz… Ancaq di gəl ki…

HÜSEYN (*Açıqlamağa başlar)* Yetər artıq! Həddini bil otur! Sevildiyini bil, cızığından çıxma!... analığınla keçinməyə məcbursan… Dişini dişinə sıxmalısan, bu qədər… Bir də ki, bütün günahların hamısı Zəhrada deyil… O da bilir ta əvvəl başdan sənin onu sevmədiyini… Təbiidir ki, hayıfını səndə qoymaz… Madəm ki, sən onu qəbul etmədin, onun səni qəbul etməsini necə umarsan? Hər zaman günahı başqalarında arama! Başqasının yerinə özünü qoymaq didişmənin də qarşısını alar, çəkişmənin də… Çünki bilirsən, nə səbəbə səninlə belə davrandığını. Və o zaman da onu belə asanlıqla günahlandırmazsan. Başa düşdünmü?

XƏDİCƏ Özümdən asılı deyil, dədə… Anamdan ötrü darıxıram… Röyyalarımda elə hey onu görürəm.

HÜSEYN (*Təsirlənir. Amma bəlli etmir.*) Başa düşdün yoxsa yox?

XƏDİCƏ Başa düşdüm, dədə.

HÜSEYN Bu gün paltarımı yudun?

XƏDİCƏ Hə, dədə.

HÜSEYN Afərin! Nələr oldu?

XƏDİCƏ Bir şey olmadı Zəhra bacım «get bunları yu» dedi… Yağmur demədim, çamur demədim, getdim yudum…

HÜSEYN Afərin qızım… Başqa?

XƏDİCƏ (*Şübhələnir*) Düz ağılın qabağından keçirdim ki, Səlim qağanı gördüm. Girdim yanına... Qaraqoyunu oxşadım azacıq… Elə ağıldan çıxırdım ki, Koxa gördü məni.

HÜSEYN Başqa?

XƏDİCƏ (*Sadəlövhlüklə)* Yalnız Qaraqoyunu oxşadım dədə… O saat gedib kirliləri yudum.

(*Şaban girir).*

HÜSEYN Yaxşı, get… Əldə-ayaqda ol… (*Xədicə çıxır*)

HÜSEYN Hazırlıq nə təhərdir?

ŞABAN Tamamdır, ağam.

HÜSEYN Əyər-əskiyimiz olmamalıdır!

ŞABAN Olmaz ağam.

HÜSEYN Təkələri də çağır bu gecə. Təkələr rəng qatar gecəyə…

ŞABAN Çağıraram, ağam.

HÜSEYN Nə etdi bu Səlim?

ŞABAN Quzuları kəsdi, ağam…

HÜSEYN Onu soruşmuram… Bu gün Xədicə ilə ikisini görmüsən?

ŞABAN *(Çaşır)* Görmüşəm, ağam…

HÜSEYN Xədicə mənim qızım, Şaban… Çoban Səlim kimdir? Qızıma yaxınlaşa bilərmi başqa məqsədlə?

ŞABAN Yaxınlaşa bilməz, bəyim.

HÜSEYN Elə isə bu sözlər hardan çıxmaqdadır? Üstəlik bu sözlərin bir ucu gəlib mənə çatmaqdadır… Oturduğumuz yerdə söz çıxarsa bu məni sinirləndirər, Şaban… Neynəmiş yəni Xədicə? Gedib Qaraqoyunu oxşamış, bu bunun alt tərəfi… Bundan belə ağızdan çıxana diqqət edilsin!

ŞABAN Məndən şübhənizmi vardır bəyim? Mən sizin koxanızam…

HÜSEYN Şübhəm yoxdur səndən… Şübhəm olsa danışarammı bunları səninlə? Lazım olanı edərəm, bununla da iş bitər… (*Əliylə çıxmasını işarə edər*). Bir az mürgələyim… Qonaqlarımız gəlmək üzərəykən mənə xəbər verin! Ziyafət uzun çəkəcək, hər halda…

ŞABAN Əmriniz olur, bəyim…

(*Şaban çıxır, Hüseyn uzanır…*)

**Oba**

*(Günəş batmaq üzrədir.*

*ocaqlar çatılmış…*

*Bir böyük qazan qaynamaqda…*

*Quzular şişdə çevrilməkdə… Səlim işinin üstündə, nəzarə edir. Oba əhli üçün uzun bir yer süfrəsi salınıb…*

*Qonaqlar üçün süfrə böyük çadırın içinə, hər kəsi görə biləcəkləri bir mövqeyə yerləşdirilib.*

*Sanki Zəhranın və Şabanın başçılığı altında qadınli-kişili hamılıqla bir çalışma var… ancaq oba camaatı ehtiyac olmasa ağızlarını açmazlar, ancaq işləməkdədirlər.*

*Oba xalqı sürüdən deyildir, ancaq onların da hamısı qoyundur…*

*Bir neçə uşaq hazırlanan salat və yeməklərdən aşırmaqdadırlar…*

*Mənzərə əməlli-başlı, bir yarmarkanı andırır… Ancaq səssiz bir yarmarka… GÖZƏTÇI olduğu məlum olan bir nəfər, yüksəklərdən qonaqların yolunu gözləməkdədir…)*

(*Qoçlar:)*

**ERKƏKLƏR**

Tarlalarda torpaqlarda,
Fabriklərdə yollarda,
Yedi qat yerin altında,
Biz erkəyik, törərik!

Doğuşumuz sevindirir,
Əksik deyil ətəyimiz,
Atalara qürur bizik.
Biz erkəyik, sevilərik!

Namus üstə vurularıq,
Məhbəslərdə sürünərik,
Yar əlindən dərbədərik,
Biz erkəyik, itilərik.

Işgəncələr bizim üçün!
Zalımlar qənimi bizik!

Qürbət eldə sürünürük!
Biz erkəyik, dirənirik!

Zər atarıq qumarlarda,
Buynuz salıb meydanlarda,
Savaşlarda, qiyamlarda
Biz ölərik, baş əymərik!

Ilqaz, Arif, Ilhan, Anday,
Fəxri, Səid, Vəli, Yunis,
Osman, Bəkir, Vasif, Həsən,
Mustafayıq, Sübhiyik biz!

Qaracaoğlan, Nazimik,
Orxan, Yaşar, pir Sultanıq,
Əli, Əziz, Nəsrəddinik,
Börklücəylə, Bədrəddinik!

Bilirik bu belə getməz!
Körpələrin haqqı itməz!
Əlimizdən nə gəlirsə
Erkəyik biz, biz yaparıq!

Kürək kürəyə verib, hey!
Fərhad olub dağları, hey!
Abi həyat axıdarıq!
Mustafayıq, Kamalıq biz!

(*Qoyunlar:)*

**QADINLAR**

Tarlalarda, düzənlərdə,
Dərələrdə, otlaqlarda,
Küçələrdə, bazarlarda
Qadınıq biz, doğarıq!

Dükanlarda, dəzgahlarda,
Fabriklərdə, yollarda,
Otaqlarda, mətbəxlərdə,
Qadınıq biz, çalışarıq!

Barlarda, pavyonlarda,
Özəllərdə, genəllərdə
Caddələrdə, sokaklarda
Qadınıq biz, soyunarıq!

Balalarıq quzuları,
Yırğalarıq beşikləri,
Yedirərik, geydirərik,
Anayıq biz, böyüdərik!

Ana, arvad, yar bizik,
Biz qız uşağı qızıq,
Bərəkət üstündə, hey
Öldürülən can bizik!

Qısacası biz qadınıq,
Qısa tuman uzun saçıq!
Qovularıq, sayılmarıq,
Döyülərik, sevilmərik!

Əlbəttə vardır çözümü,
Dinləyin bu sözümüzü
Çözüm birlikdə qurtuluş!
Erkəklər bilməli bunu!

(*Günəş batmaq üzrədir. Ocaqlar çatılmış…*

*Bir böyük qazan qaynamaqda…*

*Quzular şişdə çevrilməkdə… Səlim işinin üstündə, nəharət edir. Oba əhli üçün uzun bir yer süfrəsi salınıb…*

*Qonaqlar üçün süfrə böyük çadırın içinə, hər kəsi görə biləcəkləri bir mövqeyə yerləşdirilib.*

*Sanki Zəhranın və Şabanın başçılığı altında qadınlı-kişili hamılıqla bir çalışma var… ancaq oba camaatı ehtiyac olmasa ağızlarını açmazlar, ancaq işləməkdədirlər.*

*Oba xalqı sürüdən deyildir, ancaq onların da hamısı qoyundur…*

*Bir neçə uşaq hazırlanan salat və yeməklərdən aşırmaqdadırlar…*

*Mənzərə əməlli-başlı, bir yarmarkanı andırır… Ancaq səssiz bir yarmarka… GÖZƏTÇI olduğu məlum olan bir nəfər, yüksəklərdən qonaqların yolunu gözləməkdədir…)*

ŞABAN (*Bir az da hirslənərək yaxınlaşır Zəhraya*). Hüseyn Ağam nəyi soruşdu bilirsən mi?

ZƏHRA Nəyi əmioğlu?

ŞABAN Xədicənin ağıla getməyini…

ZƏHRA Mən söyləmədim…

ŞABAN Mən və sən söyləmədiksə Xədicə özümü söylədi?

ZƏHRA Hər halda özü söyləmişdir…

(*Bir Uşaq yaxınlaşır… Qulaq asır.*)

ŞABAN Işin gücün hiylə desənə? …Bir daha belə bir şey olursa Hüseyn Ağam məni işdən çıxardar…

ZƏHRA Sənə bir şey olmaz… Nə qədər ki, mənim yanımdasan heç kimin qılıncı kəsməz səni! Sən onlara baş-qulaq olma… Mənə yaxşı-yaxşı qulaq as… Məhmətin Xədicəni bir dəfə də görməsni, bəyənməsini qurmalıyıq… Məhmət bu gecə, gərək Xədicəni yenidən görsün!... Görsün vurulsun!... Ondan sonra görək hələ nə olur!

(*Zəhra və Şaban ayrı yerlərə uzaqlaşır) Uşaq gözləri ilə Xədicəni axtarır. Artıq günəş əməlli-başlı batmış, oba yanan ocaqlarla bir az daha şənlənmişdir. Elliklə hazırlıq işləri görülür.)*

GÖZƏTÇI Gəlirlər! Gəlirləəər!

(*Oba xalqı iş-gücü atıb gələnlərə izləməyə başlayırlar. Şaban tələm-tələsik Hüseyn Ağanı çadırına girir. Bir az sonra da birlikdə çıxıb gəlirlər…)*

HÜSEYN (Şabana) Yanına bir-iki adam al,qonaqları qarşıla!

(*Şaban əliylə iki adama işarət edərək tamaşaçıların görmədiyi bir yerə yox olur…*

*Ağsaqqallardan 3 nəfər Hüseyn Ağanın yanına gəlir…*

*Hüseyn Ağa onlara qarşı hörmətlidir… Bir az sonra öndə Əli Ağa yanında Məhmət arxalarında da silahlı mülahizəçiləri daxil olur…*

*Məhmət bildirməməyə çalışır, amma yenə də axsamaqdadır.*

*Şaban ayaqüstə duraraq gözləməkdə olan Xədicəni, gözləri ilə işarət edərək göstərir Məhmətə… Məhmət böyük bir sevinclə baxır Xədicəyə… gözlərini ayırmadan yeriyir.*

*Hüseyn Ağa gülümsünərək ayaq üstə qarşılayır qonaqlarını…*

*İki tərəf də sanki bir mərasim ciddiyyəti içərisindədir.*

*Hüseyn Ağa və Əli Ağa bir neçə dəfə qucaqlaşırlar…)*

HÜSEYN Xoş gəldiniz.

ƏLIAĞA Xoş gördük.

HÜSEYN Şərəf verdiniz Əli Ağa!

ƏLI AĞA Daha çox siz dəvət edib şərəfləndirdiniz bizi…

HÜSEYN Xoş gəldin oğlum.

MƏHMƏT (*Bir gözü Xədicədə*) sağ ol Hüseyn əmi…

1-ci YAŞLI Xoş gəldiniz

2-ci YAŞLI Şərəf verdiniz

3-cü yaşlı Səfa gətirdiniz

ƏLI AĞA Sağ olun…

*Hüseyn Ağanın əli ilə işarə etdiyi süfrəyə tərəf yeriyirlər birlikdə...*

*Öncə Əli Ağa, sonra oğlu Məhmət, daha sonra da digərləri oturur...*

*Şabanın nəzarətində cürbəcür yeməklər, içkilər danışmaqdadır süfrəyə...*

ZƏHRA Xoş gəldiniz.

HÜSEYN Xanımını tanıyırsınız Ağam…

ƏLI AĞA Sağ olun bacı… Əlbəttə tanıyıram, Ağam.

ZƏHRA Sən də xoş gəlmisən Məhmət…

MƏHMƏT (Gözü Xədicədə) sağ ol…

HÜSEYN Qızım, Xədicə…

XƏDİCƏ Xoş gəldiniz…

ƏLI AĞA *(Əzilərək.*) Xədicə də gəlinlik qız olmuş maşallah… Mən sənin cıqqılı qız olduğunu düşünürdüm, qızım…

(*Hamı gülüşür…*)

HÜSEYN (*Əlindəki qədəhi qaldırır*). Xoş gəldiniz… Şərəf verdiniz… Bir-iki söz söyləmək istəyirəm… Əli Ağa sağ olsun… Bizə böyük dostluq nümunəsi göstərmişdir… Çətinə düşdüyümüz zaman verdiyi pulun ödənməsində də bizə güzəştə getmiş, borcun müddətini uzatmışdır… Dar günümüzdə bizə, obamıza yardımçı olan Əli Ağanın bu dostluğunu heç vaxt unutmayacağam. Allahdan diləyim budur, Əli Ağaya bu dostluğunun qarşılığını vermək üçün bizə bir fürsət nəsib olsun… Sağ olsun, var olsun! Yaşasın!

(*Qədəhləri qaldırıb içirlər.*)

ƏLI AĞA (*Qədəhini qaldırır*) Qul sıxışmayınca Xızır yetişməzmiş… Borcumuzdur… yerinə yetirdik… Ağalıq verməklədir. Bundan başqa, əvvəlim də nə idi deməməliyik, axırım da nə olacaq demək lazımdır. Insan haqlıdır. Bu haqda

danışmağa belə dəyməz, Hüseyn Ağam… Kim bilir, bəlkə də bir gün sən mənim yardımçın olacaqsan… Haydı sağlığınıza…

(*Qədəhləri qaldırıb içirlər…)*

HÜSEYN Afiyyət olsun…

ƏLI AĞA Afiyyət olsun…

BIRLIKDƏ Afiyyət olsun. Nuşi-can olsun!

Bal-şəkər olsun!

(*Yemək yeməyə başlayırlar…*

*Ancaq Məhmətin gözü Xədicədə… Bir an hər şey Məhmətin gözü ilə görülür sanki… Ətrafdakı hər şey bir fotoşəkilə dönür… Məhmət Xədicədən başqa heç bir şey görmür… Bu durumu görən yalnız Zəhradır… Sevindiyi bəllidir…*

*Xədicə də üstündəki gözü hiss edir… Baxır. Məhmətin alıcı quş kimi onu izlədiyini görür. Ürpəşir. Qaçırır gözlərini… Hətta bu baxışlardan narahat belə olur… Əli Ağa oğlunun Xədicəyə baxışını tutur… Əliylə dürtmələyərək önündəki yeməyə işarə edir… Uşaq yavaşca yanaşır Xədicənin yanına… Qulağına nəsə pıçıldayır. Xədicə səssizcə qalxır süfrədən…*

*Uzaqlaşan uşağın yanına gedir…)*

XƏDİCƏ Nə var? Nə söyləyəcəksən, çevik çöylə!

UŞAQ Xədicə bacı… Səni satırlar!

XƏDİCƏ (*Əndişəylə*) Kimə?

UŞAQ Məhmətə…

XƏDİCƏ Nə bilirsən?

UŞAQ Analığınla Koxa danışarkən eşitdim.

XƏDİCƏ Nə zaman eşitdin?

UŞAQ Bir az öncə…

XƏDİCƏ Heç kəs eşitməsin, yaxşımı?

UŞAQ Heç kimsəyə demərəm, bacı.

(*Uşaq oba camaatının süfrəsinə tərəf qaçr… Xədicə Səlimi arayır gözləriylə önəmli bir şey olduğunu anladır… Xədicə kimsəyə hiss etdirmədən süfrənin ən ucuna gəlir… Səlim yaxınlaşır.)*

SƏLİM Nə oldu, kəkliyim?

XƏDİCƏ Bu gecə qaçır məni buradan!

SƏLİM Genə nə oldu?

XƏDİCƏ Məni Məhmətə verəcəklər.

SƏLİM Indi də bu hardan çıxdı…

XƏDİCƏ Zəhra ilə Şaban danışarkən eşitmiş bizim balaca… Qaçır məni SƏLİM… yoxsa birləşməyiniz qaldı.

SƏLİM Əvvəlcə elçi düşməliyəm… Əgər verməzsə o zaman düşünərək qaçmaq haqqında…

XƏDİCƏ Gecikdikcə işi müşkülə aparırsan Səlim!

SƏLİM Bu gecə istəyəcəyəm səni… Həm də qonaqların yanında… Sən ürəyini buz kimi elə! Get qarış onlara… Orada olmadığını başa düşməsinlər. (*Səlim Xədicəyə sarılır. Öpür. Xədicə sarılıb uzaqlaşır Səlimdən.*

*Xədicə yavaşca gəlib oturur yerinə… Səlim başqa bir yoldan yenidən gəlir süfrəyə… Uşağı çağırır yanına. Qulağına nəsə pıçıldayır…*

*Uşaq, başa düşdüm mənasında başını yellədir. Sonra ağaların süfrəsinə yönəlir. Qocanın yanına yaxınlaşır. Səssizcə qulağına nəsə pıçıldayır… Qoca eşitməmiş olmalı ki, uşaq yenidən söyləyir… Uşaq gedir…*

*1-ci Qoca yavaşca qalxır yerindən.*

*Kimsə nə baş verdiyinin fərqində deyildir. Məhmət hey baxmaqdadır Xədicəyə…*

*1-ci Qoca Səlimin yanına gəlir. Bir az uzaqlaşırlar.)*

Səlim Narahat etdim, əmican… Bağışla məni.

1-ci QOCA Bağışlanacaq nə var Səlim? Söylə dərdini…

SƏLİM Bu gecə mənimçün Xədicəyə elçi düşün, əmi.

1-ci QOCA Bu gecəmi?

SƏLİM Hə, elə bu gecə… Yoxsa iş işdən keçəcək…

1-ci QOCA Nəyə görə iş işdən keçsin? Açıq danış Səlim!

SƏLİM Əlimizi çevik tutmasaq Əli Ağanın oğluna verəcəklər Xədicəni…

(*1-ci Qoca ilan vurmuş kimi geri çəkilib süfrədəki yerinə dönür.*

*Səssizcə oturur yerinə... Dərhal yanındakı o biri qocaya başa salır durumu... bir az çətinliklə başa salır, ancaq yenə də başa sala bilir...*

*Yanındakı da o birinə başa salır...*

*Gözləri ilə uyğun olduğunu işarə edirlər biri-birilərinə... yenə səssizcə 1-ci qocanın qızı istəməsini qərarlaşdırırlar...*

*Və arada Şaban «Təkə Zortlaması» oyunu oynayacaq qrupu ortaya gətirmək hazırlığındadır.)*

1-ci Qoca (Yüksək səslə) Hüseyn Ağa bir diləyimiz var…

(*1-ci Qocanın sözü yarımçıq qalır... Təkə Zortlaması başlayır.)*

**PƏRDƏ**

## İKİNCİ BÖLÜM

(*Təkə Zortlaması davam edir.*

*Səlim və Xədicə həyəcanla gözləməkdə... Məhmət oyunu deyil, Xədicəni izləməkdə...)*

**TƏKƏ ZORTLAMASI**

Daşlı tarla alaqlı,
Səlim yekə ayaqlı,
Çox varmayın üstünə,
Daha yeni adaxlı.

Mən sənə gəlmə dedim
Axşama qalma dedim
Hazır, qapı dururkən
Bacadan girmə dedim.

İrəfdəki sinilər
İnim-inim inildər
Qürbətdəki yarımın
Qulaqları çınılar

Mən sənə gəlmə dedim.
Axşama qalma dedim
Hazır qapı dururkən
Bacadan girmə dedim.

Portağalım, çiçəyim
Yol verin ki, keçəyim.
Yarım məndən küsübdür

Ağularmı içəyim?

Mən sənə gəlmə dedim
Axşama qalma dedim
Hazır qapı dururkən
Bacadan girmə dedim.

Qərib dağın odunu,
Yanan bilir dadını!
Ay, qız doğan analar
Xədicə qoyun adını!

Mən sənə gəlmə dedim
Axşama qalma dedim
Hazır qapı dururkən
Bacadan girmə dedim.

(*Oyun bitir… Rəqs edənlər süfrəyə otururlar.)*

1-ci QOCA (Səsini yüksəldir) Hüseyn Ağa!

HÜSEYN Nədir?

1-ci QOCA Bir diləyimiz vardır səndən…

Qonaqlarımız da özgəsi deyil… Həm də belə xeyirli iş için camaat arasında danışılması Allaha xoş gedər… Ona görə, elə biz də bu hörmətli qonaqlar da burdaykən, bu xeyirli istəyimizi sənə çatdırmaq istəyirik…

HÜSEYN Maraqladır, de görək nədir bu xeyirli iş?

1-ci QOCA Hüseyn Ağa… Səlimi necə tanıyırsan?

HÜSEYN Hansı Səlimi?

1-ci QOCA Çoban Səlimi deyirəm.

HÜSEYN Bizim çobanımı?

1-ci QOCA Bəli…

HÜSEYN Yaxşı uşaqdır… Çalışqandır… Itaətkardır… Bundan başqa əlinə, dilinə, belinə yiyə dura bilir…

1-ci QOCA Bizim də fikrimiz elədir…

HÜSEYN Sözü nəyin üstünə gətirəcəksən?

1-ci QOCA Təkcə əksikliyi yoxsul olmağıdır… Söylə, Hüseyn Ağa yoxsulluğundan başqa bir əskikliyi varmıdır Səlimin?

HÜSEYN Yoxdur.

1-ci QOCA Hüseyn Ağa… Biz də, qızın Xədicəni yaxşı tanıyırıq. Gözəl olmağına gözəl, təmiz olmağına təmiz, yaxşı olmağına yaxşı bir gənc balamızdır… Xədicənin yoxsulluq kimi bir əskikliyi yoxdur… Çünki, obamızın bəyinin tək bir qızıdır…

(*Zəhra əməlli başlı vurnuxur…*)

HÜSEYN *(Zəhranın sözə qarışmağa hazırlaşdığını hiss edir. Əli ilə susdurur)* Danışan Ağsaqqal məclisinin ən hörmətli üzvüdür… (*1-ci QOCAYA*) Mıs-mıs deyincə, birdəfəlik Mustafa de.

1-ci QOCA Sözün qısası… Sözün qısası… Allhın əmri, Peyğəmbərin buyruğu ilə Xədicəni Səlimə istəyirik səndən…

(*Elə bil qurbağa gölünə daş atılır)*

HÜSEYN Nəyə görə Səlimin dədəsi, nənəsi deyil də, sən elçi düşürsən Xədicəyə?

1-ci QOCA Səlimin nə dədəsi var, nə nənəsi, nə də bir kimsənəsi… Hamısı o biri dünyaya köçmüşlər… Buna görə də bu vəzifə bizə düşmüşdür…

ZƏHRA Çoban Səlim neçə quruşluq adamdır ki, Hüseyn Ağanın qızı ilə baş-göz olmağa həvəslənir?

1-ci QOCA Könül verib, baş-göz olmağı istəmək bir günah deyil, savabdır…

ZƏHRA Taylı tayını tapmalıdır…

HÜSEYN Sən qarışma Zəhra!

ZƏHRA Harada görülüb bir bəy qızının, toylu-nağaralı, bir çobana verildiyini? Özünə tay bir oğlan istəsəydi Xədicəni heç tərəddüd edərdikmi? Belə bir şey Hüseyn Ağanın şəninə yaraşarmı?

HÜSEYN *(Hirslənir*) Sus, arvad! Əlinin xamırı ilə qarışma mənim işimə! Hələ «hə»sini verməmişik ki, (Zəhra hikkə ilə gedir. Səssizlik)

ƏLI AĞA (*Ancaq yanındakıların eşidə biləcəyi bir səslə*) Ucundan qulağından biz də şahid olduq bu işə… İcazə versən mən də öz fikirlərimi bildirim Hüseyn Ağa…

HÜSEYN Ağıl ağıldan üstün olar… Məmnun edərsən məni, Əli Ağa…

ƏLI AĞA Bax, Hüseyn Ağa… Sənin daima məsləhətləşdiyin, nəsihətlərini aldığın ağsaqqallar sənin qızına elçi düşüblər. Mənə qalırsa, vermirəm, deyib əllərini ətəyindən kəsməyin doğru deyildir…Vermirəm desən Ağsaqqalları küsdürərsən özündən… Digər tərəfdən də Səlimə amansızlıq etmiş olarsan…

HÜSEYN (*hirslənir, ancaq biruzə verməməyə çalışır*)

Bunun nəyi amansızlıqdır?

ƏLI AĞA Çoban gənc bir insandır… Gənclərin qəlbini qırmaq isə ağa adına yaraşmaz…

MƏHMƏT (*Səssizcə*) Dədə! Biz buraya nədən ötrü gəlmişdik?

ƏLI AĞA *(Səssizcə)* Bilirəm Məhmət… Sus və dinlə!

HÜSEYN Yəni deyirsən ki, qızımı Səlimə verim?

ƏLI AĞA (*Ancaq onun eşidəcəyi səslə*) Sənə ver deyən oldumu, Hüseyn Ağa?

HÜSEYN «Vermirəm» də deməyə qoymursan!

ƏLI AĞA Axı sən dünya görmüş insansan, Hüseyn Ağa… Həm qızı verməmək, həm də qıza elçi salanı küsdürməmək mümkündür…

HÜSEYN Bizi intizarda saxlama, ağam!

ƏLI AĞA Şərt qoy Səlimin qabağında.

HÜSEYN Nə şərti, ağam?

ƏLI AĞA Bizim oralarda belə, Səlimin adı çıxıb… Deyirlər yaxşı çobandır… Sürünü yaxşı otarır… Çoban nə istəsə sürü bir dediyini iki etmir… Deyirlər, tütəyi

çalmağa başladımı qoyunlar iki ayağının üstünə qalxıb oynayır… Yoxsa eşitdiklərim qondarmadır?

HÜSEYN Elə deyirlər…

ƏLI AĞA Mənim təklifim, sürüyə sabah günortaya qədər duz yedirtmək lazımdır. Bütün gecə və səhəri duz yeyib su da içməyən sürünü gətirib gələk Qızılirmağa qarışan bu kiçik arxın başına… O biri taya da SƏLİM keçsin… Çalsın tütəyini… Əgər heç olmasa bir qoyun belə su içmədən keçərsə o biri taya, halal olsun belə bir igidə bir deyil min Xədicə…Əgər bir qoyun belə içərsə sudan, artıq bu bir alın yazısıdır… Nə Səlim küsər səndən, nə də ağsaqqallar inciyər…

Nə deyirsən bu söhbətə, Hüseyn Ağa?

HÜSEYN (Düşünür bir az) Belə bir şərt qoymaq ağlabatan fikirdir…

ƏLI AĞA Beləcə qızı da verməmiş oluarsan… Heç kimsəni də küsdürmürsən…

HÜSEYN Ancaq əlimizdəki işi düyünə salmayaq, Əli Ağa. Birdəfəlik yox cavabının verək getsin…

ƏLI AĞA (*Lap yavaş*) Bax, Hüseyn Ağa… Biz buraya yeyib-içməyə, gülüb-oynamağa deyil, Xədicəni oğlum Məhmətə istəməyə gəldik… Nəyə görə bu istəyimizi dilə gətirməkdə geçikdiyimizi soruşsan, deyərdim ki, belə bir işin ola biləcəyini ağlımıza gətirməmişdik. İşi zorakılığa vurmaq sənə də, mənə də yaraşmaz. Ağlımız olsa, heç kəsi küsdürmədən bu məsələni yoluna qoya bilərik. Üstəlik, əgər belə etsək daha bizim qabağımızda kimsə dayana bilməz. Qızılirmaq kimi güclü olarıq.

HÜSEYN Əgər işdir, qoyduğumuz şərti yerinə yetirərsə…?

ƏLI AĞA Başarsa, sənə də, mənə də yaraşan, qızı verməkdir. Ancaq yenə də ürəyini geniş tut. Çünki dəvənin quyruğu yerə dəyəndə başarar Səlim bu işi… Ya da Qızılirmaq tərsinə axsa!

*(Səssizlik… Məhmət atasına nəsə demək istəyir. Əli Ağa susdurur.)*

HÜSEYN (*Şabana)* Çağırın Səlimi! *(Şaban çıxır)*

MƏHMƏT *(Şübhəli)* Kim nəzarət edəcək duz yedirtmə işinə?

ƏLI AĞA (*Hamının eşidəcəyi səslə*) Nə Səlimin, nə də Hüseyn Ağanın tərəfin tutanlar nəzarət etməməlidir duz yedirtmə işinə!

(*Ağsaqqallara*) Bizdən daha bitərəf kimi tapacaqsınız? Nə deyirsiniz?

(*Qocalar bir-birilərinə baxırlar… gözləriylə razılıq verirlər.)*

1-ci QOCA Etirazımız yoxdur. Ancaq bizdən də bir nəzarətçi olmalıdır.

ƏLI AĞA Kimi uyğun görürsünüzsə seçin nəzarətçinizi…

*(Digər Qocalar 1-ci Qocada qərar qılırlar)*

1-ci QOCA Madəm ki, mən seçildim, deməli nəzarətçi məsələsi həll olunubdur…

ƏLI AĞA Hüseyn Ağa… Səncə də uyğunsa, yemək qurtarandan sonra mənim adamlarım dursunlar sürünün başında və yedirtməyə başlasınlar duzu…

HÜSEYN Uyğundur…

1-ci QOCA Məni unutmayın ağalar… Ağzımızdan çıxan yerə düşməsin sonra!

ƏLI AĞA Elə şey olar? Əgər dözə bilməyib yuxulasan növbəyə də mindirə bilərsən nəzarətçilik işini!

1-ci QOCA Yaşlılara yuxu haramdır… Çünki torpağın altına girəndən sonra bir də oyanmayacağımızı bilirik…

(*Səlim gəlir. Məhmət Səlimə öldürəcəkmiş kimi baxır. Səlim ayaq üstə durur.Məhmət də ayaq üstədir. Baxışırlar.)*

*( Məhmət:)*

**MƏHMƏTIN TÜRKÜSÜ**

Varlı olmaq nəyə yarar?
Bərabər deyil şərtlər!
Gözəl səni seçərmi?
Ayaq axsarsa əgər!

Ah ayağım, ayağım!

Nədən axsarsan belə?
Boynumu bükük edib
Utandırarsan, söylə!

Ax, dədə, nə elədin?
Gecikməsəydi, bunlar
Heç gəlməzdi başıma
Acınacaq bu hallar?

Almalıyam bu qızı,
Bir oyunla olsa da!
Keçirsə belə sürünü
Verməræm qızı ona!

Alçaq görmə özünü,
Həddən artıq varlısan
Çulsuzla bir tutma gəl
Bu gözəl maralı sən!

Nigahda kəramət var
Düyün dəsgah qurular.
Bir kəz aldıqmı qızı
Ər-arvada çevrilər!

Yeriməsən bilinməz
Ayaq olsun axsayan
Büdrəsəm bu var-dövlət
Tutacaqdır əlimdən!

SƏLİM (*Gözlərini Məhmətdən ayırmadan.*) Məni əmr etmişsiniz Ağam…

HÜSEYN Səni çox istəyirəm, dəliqanlı… Sənə güvənirəm… Üstəlik də sürümün çobanısan… İnanıb xətrini istəməsəm sənə bu vəzifəni verərəmmi? (*Gözləyir. Guya düşünür.*) Qızıma elçi salmısan… Mənim qızımı istəyən sənin kimi bir dəliqanlı, üstəlik də mənim çobanımdırsa, yaxından tanıdığım bir insandırsa buna ancaq sevinə bilərəm. Mən də istəyərm qızımı sənə verəm… Əvvəl-axır, bir sürünü əmanət elədiyim bir adam bir qız əmanət etməyə nə var.

SƏLİM (*Əllərinə sarılıb öpmək istər.*) Sağ olun Ağam.

HÜSEYN (*Əllərini geri çəkir.*) Ancaq bir şərtim vardır. Şərtimi yerinə yetirsən, təbiidir ki, qızı alarsan. Yox əgər yerinə yetirə bilməsən alın yazım belə imiş deyib bu işi unudarsan!

SƏLİM *(Əndişəli)* Nədir şərtiniz?

HÜSEYN İndidən tezi yox. Duz yedirdəcəyik sürüyə… Ancaq heç su verilməyəcək. Sabah, günorta vaxtı, günəş tam təpəmiz üstündə olanda gedəcəksən suyun o biri tayına… Üfləyəcəksən tütəyi və sürünü çağıracaqsan yanına… Amma heç bir qoyun o biri taya keçərkən bir damla belə olsun su içməməlidir! Şərtimiz bundan ibarətdir! Əgər mən bunu bacarmaram deyirsənsə, onda elə bəri başdan bu sevdadan əl çək! Qaçmaq da igidliyin bir nişanəsidir… Yeyə bilmədiyin yoğurdun başına keçib qaşığı ələ almaq isə həddini bilməmək deməkdir! Bu vəziyyətə düşmədən indidən qərarı verə bilərsən. Nə deyirsən?

SƏLİM *(Alt-üst olmuşdur*) Sınaqdan keçirəcəyəm, Ağam…

(*Məhmət elə bil firlanıb cumacaqdı Səlimin üstünə*

*Atası hiss etdirmədən əliylə tutub paltarından səkir, Məhməti yerində oturdur.)*

HÜSEYN Vaxt varkən imtina eləyə bilərsən. Qərarını o saat bildirmə! Heç olmasa bir az daha fikirləş! Yaddan çıxartma ki, bir igidi ən çox yaralayan rüsvay olmaqdır!

*(Səssizlik…)*

SƏLİM Rəzil olmağı gözünün altına ala bilməyən vəzir ola bilməz. Ağam sınaqdan keçirəcəyəm…

1-ci QOCA Təsir göstərməyə lüzum yoxdur… Qərara gəldiyi açıq-aşkar görünür…

HÜSEYN Yaxşı o zaman… (*Hələ də əl çəkəcəyindən umudlu*) Bəlkə son bir sözün vardır?

SƏLİM Ağam, nə zaman başlayacaq duzvermə işi?

HÜSEYN Yemək-içmək tamamlanandan sonra…. Yəni birazdan… Əli Ağanın adamları yedirəcəklər duzu…

1-ci QOCA Mən də nəzarətçi olaraq qalacam… Narahat olma, yuxuyua getmərəm!

SƏLİM Ağam…

HÜSEYN (*Umudludur hələ*) Söylə…

SƏLİM Sürünün yanına gedə bilərəmmi?

HÜSEYN (*Hirsləndiyini bəlli etməyə çalışaraq, öz-özünə*) Görəsən nə pox yeyəcək sürünün yanında! (*Səlimə*) Get, get… Duz, gətirənə qədər qala bilərsən!

SƏLİM Sağ ol Ağam *(Çıxır)*

(Səssizlik… Zəhra Səlimin yolunu kəsir çadırın önündə)

ZƏHRA Su içirilməyəcək, eləmi? Ancaq duz yeyəcəklər, hə? Bu şərtlərdə sürünü o taya keçirə biləcəksənmi?

SƏLİM Keçirəcəyəm Allahın izniylə!

ZƏHRA Sonra da qızı alacaqsan, eləmi?

SƏLİM Qismət olsa…

ZƏHRA *(Kinlə)* Abdal! Keçirtsən belə verərmi qızı? Ağa qızının çoban arvadı olduğunu harada görülmüşdür?

(*Səlim bir şey söyləmək istəyir, vaz keçir… Uzaqlaşır… Zəhra kinlə baxmaqdadır Səlimin ardından…)*

**Ağıl**

(*Sürü səssizcə gözləməkdə... Sanki yas tutublar.... Çoban köpəklərindən biri düz girişin ağzında yatıb... Qaraqoyun bir az daha fərqli yerdə... O da çox üzgün... SƏLİM gəlir... SƏLİM ümumi xoşnudsuzluğu sezinlər... Hansı qoyunun yanına yaxınlaşırsa, o qoyun arxasın çevirməkdədir Səlimə... Səlim bir neçə qoyuna yaxınlaşır, eyni hal təkrar olunur. Özəlliklə quzuları kəsilən qoyunlar bir başqa hiddətlə baxmaqdadırlar Səlimə... Səlim son çarə Qaraqoyuna yanaşır)*

SƏLİM Qaraqoyun sürüm məndən küsübmü Qaraqoyunum?... Yoxsa!... Yoxsa sən də küsmüsən?

QARAQOYUN Məəəəə!

SƏLİM Başa salmadınmı bunlara, mənim əlimdə olan bir şey deyildir quzuları kəsmək! Eyni şeyləri söyləməkdən yoruldum, yoruldum Qaraqoyunum… Yoxsa elə bilirlər mənim ürəyim onlardan az yanır? İndi ağıla nəyə görə gəldim bilirsənmi? Bir az sonra buraya çuval-çuval duz gətirəcəklər… O duzları sizə yedirəcəklər… sabah günortaya qədər ancaq duz yeyəcəksiniz… Bir damla belə su içmədən duz yeyəcəksiniz… Mən tütəyimi çalmağa başlayanda hamınız axar suyun o biri başına keçəcəksiniz… Amma bir damlacıq belə su içmədən… Sən də keçəcəksən Qaraqoyunum, sən də. Bax o zaman Ağa, verəcək qızını mənə… Əgər biriniz belə bir azacıq da olsa içsəniz axmaqda olan sudan, qızı mənə verməyəcəklər… Başa düşdünmü Qaraqoyun? (*Səssizlik…*) Ağa, qızını mənə verməmək üçün ortaya belə şərt qoydu… Söylə, Qaraqoyunum, söylə! Bunu bilsinlər də, mənə yardımçı olsunlar!

*(Qoyunlar birbirlərinə baxarlar...*

*Özəlliklə quzuları kəsilən qoyunlar daha da hirslənmişlər... Sanki, qisas almaqdan ötrü əllərinə fürsət düşdüyünə sevinirlər... İkrahla və kinlə izləməyə başlayırlar Səlimi... Hətta arada-bir başını mənalı-mənalı tərpədib «Sabah görərsən!» deyirmiş kimi məsxərə ilə baxan qoyunlar da vardır aralarında... Qaraqoyun sanki bir az daha başa düşəndir... Ancaq, görünür ki, sürünün ümumi əhval-ruhiyyəsinə qarşı çıxa bilmənin də əziyyətini çəkməkdədir...) (Qaraqoyun:)*

**SORĞU**

Sənin kimi bir igidə
Cəllad olmaq yaraşarmı?
Öz nəslini kəsənlərə
Yaxşı gözlə baxılarmı?

Çoban Səlim, sən bizdənsən
Nədən xəyanət edirsən?
Nəslinə arxa çevirdin
Etdiyini bilməzmisən?

Sözünün keçdiyi yerdə
Cana necə qıyırsan?
Əslinə arxa çöndərib
Necə mərhəmət dilərsən?

Qəssab olub cana qıydın!
Analara acı verdin!
Çaşqınlığa gərək varmı
Nə əkdinsə onu dərdin!

SƏLİM (*Ümidsizliyə qapılır.)* Mənim heç bir günahım yoxdur, demirəm sizə! Bəlkə də çobanlığı atmaq ən yaxşısıdır… Ancaq dediyim budur: Siz qoyun qaldıqca mən, ya da başqası kəsəcəkdir quzularınızı… Quruluş belə quruluşdur! Kim gəlsə kəsiləcək quzularınız! Başa salmaq istədiyim budur sizlərə! (*Qoyunlar artıq başlarını yellətmirlər Səlimə... Ancaq yenə də buz kimidirlər. Başlarını aldatmağa çalışdığını anlamış kimi bir-birləriylə işarətləşirlər...*) Etiraz edirsinizsə qara taleyinizə etiraz edin, mənə deyil! (*Bir müddət fikrə dalır. Qaraqoyuna)* Orman uludur… Orman gözəldir… Amma rüzgar əsmədən uğuldamaz orman… Bu sənin rüzgarın olmalı Qaraqoyunum… Sən əsməlisən ki,

onlar uğuldasın! Amma bunu da heç unutma! Tək başına əsmək istəyəni də yaşatmazlar!

(*Səlim bayıra tərəf yönəlir. Çıxaçıxda Zəhra gəlir, Səlimin qarşısına keçir.)*

ZƏHRA Bu işdən əl çək!

SƏLİM Nə deyirsən bacı?

ZƏHRA Bacın ölsün! Bacın!

(*Səlimin qolundan tutur, o biri əliylə arxasında gizlətdiyi taxta qutunu ona uzadır...)* Aç, aç bunu!

(*Səlimin hərəkətsiz durduğunu görüncə özü taxta qutunu açır… Cəvahirlər, takılar, beşibiryerdələr, qızıllar par-par göz qamaşdırır.)* Al! Hamısı sənin olsun! Onu alsan axı nə olacaq? Poxlu bir qızdan sənə arvadmı olar? Mən daha gözəl deyiləmmi?

SƏLİM Əstağfürulla de bacı!

ZƏHRA (*Qutunu yerə atır, içindəkilər yerə səpələnir… Havalanmış kimidir artıq. Səlimin boğazına sarılıb hikkə ilə deyir:*) Boğaram səni! Boğaram! Boğaram!

(*Görünür Qaraqoyunun Səlimə yazığı gəlir, araya girməyə çalışır… Səlim Zəhranın əllərindən tutaraq boğazından çəkir…)*

SƏLİM *(Səssizcə)* Rüsvay olarıq bacı! *(Zəhranın tərpənməsinə mane olmağa çalışaraq)* Heç ərinin tərəfini fikirləşmirsənmi? *(Birdən güc göstərir Zəhraya… Az qalır yerə yıxılsın)* Get artıq! Get dedim, get! Yerdəkiləri də topla və get!

(*Zəhra bu dəfə ağlamağa başlayır... Səlimin ayaqlarına qapanır.)*

SƏLİM (*Ayaqları ilə itələyir... Boğulurmuş kimi*) Yoxsa gəbərdəcəyəm səni! Topla qızıllarını və get!

ZƏHRA (*Artıq pişik kimi yumşalıb… Bir yandan səssizcə ağlarkən, digər yandan da yerdəki cəvahiratları qutuya qoymaqdadır... burnunu çəkə-çəkə*) Qızı sevdiyini söyləyirsən… Elə isə demək sevginin nə olduğun bilirsən… Səni necə sevdiyimi görmürsənmi? Səni sevirəm… Səni istəyirəm. Götür qaçırt məni buradan… Nəyim var, nəyim yoxsa sənin olacaq. Çox qızılım var… Mənə qıyma!... Məni yaxıb-yandırma!... Sən olmasan bu can bu bədəndə durmaz…

Vicdan əzabından qəhr olarsan… Mənə qarşı belə zalımlıq etmə!... (*Yerdəkiləri toplamışdır... Yenidən Səlimin ayaqlarına uzanır…Az qala bağıraraq*) Qaçır məni! Qaçır məni!

(*Səlim ayaqları ilə təpikləyərək Zəhradan uzaqlaşır… Sürüyə və Qaraqoyuna son dəfə baxır və ağıldan çıxıb gedir… Zəhra yerdə ağlamasını sürdürərək:)*

**DİVANƏYƏM!**

Yandım, yandım viranəyəm!
Yar əlindən biçarəyəm!
Sevdim, amma istəmədi,
Mən nə oldum, avarayəm!

Baxçamda Gülüm güllənmiş
Şeyda bülbülüm dillənmiş.
Qoynumda məməm kirlənmiş
Mən nə oldum, divanəyəm!

Aman, aman mən nə edim?
Baş alıb hara gedim?
Dəli könlüm muradına
Çatmaz qeyri, biçarəyəm!

Ellər oturacaq taxtıma
Lənət olsun bu baxtıma!
Ürəyimi qəmə saldım,
Mən nə oldum divanəyəm!

*(İçəriyə çiyinlərində iki duz çuvalı ilə Ağanın qaravulçuları girir… Çuvalları yerə endirirlər. Sürüyərək nisbətən hündür yerə gətirirlər… Zəhra əlindəki qutunu gizləyərək dışarı çıxır… Çuvalları gətirənlər sürüyə baxırlar… Bir az sonra*

*əllərində məşəllərlə Şaban və digər adamlar gəlirlər… Əli Ağa, Hüseyn Ağa və Məhmət məşəllərin arxasındadır… Bir xeyli insan ağılın yanını, ətrafını doldurub, maraqla izləməkdədirlər içərini… Nəzarətçilər çuvalların ağzını açırlar… Çuvalların birindən çıxartdıqları duzun bir parçasını sürünün qabağına səpirlər… Önünə duz qoyulan qoyunlar o saat yeməyə başlayırlar…)*

ƏLİ AĞA (*öz adamlarına… yüksək səslə*) Bu gecə yatmaq yoxdur! Ağıldan ayrılmayacaqsınız! Başa düşdünüz, ya yox?

1-ci NƏZARƏTÇI Başa düşdük, ağam.

2-ci NƏZARƏTÇI Başa düşdük.

BIRLIKDƏ Başa düşdük.

HÜSEYN *(Əliyə)* Ağam, siz istirahət etsəydiniz…

ƏLİ AĞA Biz gedək Hüseyn Ağa… Yolçu yolunda gərək.

HÜSEYN Yenə də deyirəm, qalsaydınız yaxşı olardı…

ƏLİ AĞA Bu iş, hesabda olmayan bir işdir Ağam… Başqa bir işimiz var sabah erkən… Bir adama söz vermişəm… Amma doğrusu maraq etməkdəyəm yenə də… Keçirə biləcəkmi, su içirtmədən çoban sürünü?

ŞABAN Mümkün olan şey deyil ağam?

ƏLİ AĞA Ancaq biz gələnə qədər işə başlatmayın ha, Ağam…

HÜSEYN Elə şey olarmı?

ƏLI AĞA Günorta olmamış burdayıq, eyvallah!

(*Öncə Əli Ağa, sonra Məhmət, sonra Hüseyn Ağa və digərləri çıxırlar ağıldan. Yalnız nəzarətçilər qalır içəridə. Bir də daşların üzərində hadisələri üzləməkdə olan uşaqlar… Bir yanda ay işığı, digər yanda məşəllər Ağılın içərisini işıqlandırmaqdadır… Və durmadan duz səpilməkdədir qoyunların önünə…*

*Artıq ağıl tamaşaçılar tərəfindən daim görünəcək…*

*Və digər məkanlarda hadisələr sürərkən də duz yedirmə davam edəcək.)*

**Hüseyn Ağanın çadırının önü**

(*Hüseyn bir iskəmlənin üstündə oturub… Koxa ayaq üstə… Yanlarında bir çoban köpəyi… Hüseyn bükdüyü siqareti yandırır, tüstülədir.*)

HÜSEYN Bu nə işdir, Koxa?

ŞABAN Hansını deyirsən, Ağam?

HÜSEYN Bu şərt qoşma işini.

ŞABAN İşin doğrusu budur Ağam… Əli Ağanın Xədicəni oğluna istəyəcəyi bilindiyinə görə başqa cür davranması qınağa səbəb olardı.

HÜSEYN Madəm ki, istəyəcəklərdi qızı, nəyə görə erkən davranmadılar? İstəsəydilər verərdik, qurtarardı gedərdi. Məhmətdən daha xasınımı tapacaqdıq.

ŞABAN Məncə qocalar qarışdırdı işi… Əgər əcələ edib qızı istəməsəydilər, iş bu şəkilə dönməzdi.

HÜSEYN Demək ki, onlar da eşidib Xədicənin Məhmətə istənəcəyini… Üstəlik Çobanın tərəfini tutublar… Yaxşı, de görüm, Koxa, keçirə bilərmi Çoban sürünü?

ŞABAN Mümkünatı yoxdur, Ağam.

HÜSEYN Ancaq, deyilənə görə sürüyə öl desə ölər, qal desə qalar.

ŞABAN Oba xalqı belədir, xəyalda gördüyünü gerçək sanır… Mənim fikrimi bilmək istəyirsinizsə, bu deyilənlər hamısı uydurmadır.

HÜSEYN Hərçənd biz seçib gətirdik Çobanı oraya… Amma bax! Bu işdən vaz keç deməyimə baxmayaraq dirəndi… Sınaqdan keçirəcəyəm dedi… Bundan sonra hər nə hal olursa, olsun, Səlim çoban olaraq qalmayacaqdır… Allahın xeyri ilə sağ-salamat bu işi keçirdək, ertəsi gün işi bitib çobanın… Bu gündən tezi yoxdur, yeni bir çoban fikirləş bizim üçün… Ancaq hər şeydən əvvəl biz sabahı düşünək… İşdir, birdən keçirərsə sürünü?

ŞABAN Duz işi başqadır Ağam… Duz pozar oyunu… Susuzluq canlılara hər cür olmazı oldurar… Yapılmazı yapdırar.

HÜSEYN Saxlaginən hələlik yekə-yekə danışmağı… İşdir, şayəd keçirərsə, nə edərik, onu söylə?

ŞABAN Belə bir ehtimal mümkün deyildir Ağam…

HÜSEYN Balam, milyonda bir ehtimal da olsa, deyəlim sürünü keçirdi. Sən onu söylə: Nə edəcəyik o zaman?

ŞABAN Sözündən qaçarsan Ağam.

HÜSEYN Ayıb olmazmı?

ŞABAN Əsil ayıb onda olar ki, sənin kimi bir Ağa qızını bir çobana verər! Bir az dincəl. Yorğunsan Ağam…

HÜSEYN (*İçəriyə keçərsən.)* İnşallah caymağa belə gərək qalmaz. Gecən xeyirə qalsın.

ŞABAN Xeyirə qarşı Ağam (*Gedir)*

(*Hüseyn içəri girir. Zəhra soyunmaqda… Hüseyn də soyunmaqda.*)

HÜSEYN Qız hanı?

ZƏHRA *(Əliylə irəlini göstərir.)* Yatağında… ebelə oldu.

HÜSEYN Çoban sürünü keçirərsə nə təhər olar?

ZƏHRA Əmioğlu ən yaxşı çarəsini söylədi… Sözündə durmazsan!

(*Zəhra yatağa girir, arxasını çevirir… Səlimi düşünür… Hüseyn də yatağa girir, düşüncəlidir… Xədicənin olduğu yer də işıqlanır… Xədicə gerçəkdən yataqdadır. Amma geyinik. Dışarını dinləməkdə… Hüseyn xoruldamağa başlayır. Zəhra hiss olunur ki, iyrənməkdədir Hüseyndən…*

*Yetəri qədər aralanmış Hüseyndən…*

*Xədicə yavaşca dikəlir yataqdan. Yatağına bir yastıq qoyur. Yorğanı örtür yastığın üstünə və yavaşca süzülür dışarıya. Bir müddət oturur bir kənarda… Bir müddət ümidlə Səlimin gələcəyini düşünər…)*

*(XƏDİCƏ:)*

**QARA SEVDA**

Qara sandıq açmadım,
Cehizimi seçmədim.

Yazıq oldu gəncliyimə,
Çoban ilə qaçmadım!

Ay nolaydı, nolaydı?
Sürü duzu yeməyəydi.
Nə çarə yedilər duzu
Ürəyimə çıxdı sızı!

Saçımı üçə böldülər
Bölük-bölük də hördülər.
Yardan muradım almadan
Qolum-qanadım qırdılar

Suyu içərsə qoyunlar,
Bəklər bizi oyunlar.
Məzarımı qızlar qazsın
Altın, gümüş boyunlar!

(*Xədicə oturmaqdadır, hüznlü…*

*Zəhra şübhələnir birdən… Qalxıb keçir, yatağına baxır Xədicənin. Yorğanın içindəki nəsnənin nəfəs alıb vermədiyini görüncə yorğanı firlayıb açır…*

*Qaçaraq gəlir Hüseynin yanına.*)

ZƏHRA Qalx ayağa! Qalx (*Əliylə silkələyir*)

Dur dedim sənə! Dur!

HÜSEYN Nə var? Nə oldu?

ZƏHRA XƏDİCƏ qaçıb!

(*öndə Hüseyn, arxada Zəhra Xədicənin yatağına tərəf qaçırlar.)*

HÜSEYN (*Yastığı götürür yatağın içindən.*) Vay qancıq, vay (*Yenidən öz bölümünə qaçar. Tələsik geyinməkdədir. Dışarıya firlar. Zəhra arxasınca gəlir… Səsini qısaraq bağırır.)* Şaban! Şaban!

ŞABAN (*alt paltarında gəlir*) Buyur Hüseyn Ağam? Xeyirdir…

HÜSEYN (*Qısıq səslə*) Xədicə yoxdur! Yastıq qoyub yatağının içinə! Qaçdı hər halda! Balam, rüsvay edəcək məni! Sən biləni qoşulub qaçıbmı?

ŞABAN (*Düşünərək)* Ağam, siz keçin çadırınıza…

HÜSEYN Söz soruşdum sizdən!

ŞABAN Bilmirəm ki, ağam. Bəlkə də qaçmışdır… Bu saat aydınlaşdırarıq…

ZƏHRA Necə aydınlaşacaqsa, aydınlaşsın vaxt itirmədən, əmioğlu! Çevik ol, əmioğlu, çevik!

(*ŞABAN çadıra girir. Girməsi ilə çıxması bir olur. Əlində bir tüfəng...)*

ŞABAN Ağam siz çadırınıza keçin… (*Qaçaraq Səlimin qaldığı yerə gedir.)* SƏLİM! SƏLİMmm!

SƏLİM *(İçəridən çıxır. Geynikli*) Sənmisən, Şaban Koxa?

ŞABAN Mənəm… Xədicə hardadı?

SƏLİM Mən nə bilim?

ŞABAN Yastıq qoymuş yatağına. Xəbərin varmı, açıq danış?

SƏLİM Vallahi bilmirəm, Şaban Koxa… *(Təlaşlanır.)* Axtaraq…

ŞABAN *(Içəriyə soxar başını. Yenidən Səlimə)* Hüseyn Ağam da qalxdı. Səni görməsin, yoxsa parçalayar!

SƏLİM Mənim nə suçum var ki?

(*Səssizlik. Şaban Hüseynin yanına gəlməkdə... Bu arada Xədicə çadırların yanında, dədəsinin və analığının dayanmış olduğunu görür. Yanaşıb kürəyini çadıra verərək otukrur... Babasının eşidəcəyi səslə öskürür.*)

ZƏHRA Dinlə!

ŞABAN Eşitdiniz mi?

HÜSEYN Eşitdim! Xədicənin öskürəyidir!

ZƏHRA Orada, bax!

(*Üçü də qaçaraq oturmaqda olan Xədicənin yanına gəlirlər.)*

ZƏHRA Nə qayırırsan qız burada?

XƏDİCƏ Heeeç. Yuxum gəlmədi.

HÜSEYN Ağzına pox qoyaram sənin, eşşəkoğlunun qızı! Niyə yastıq qoydun yorğanın altına? Məqsədin nədir, məni rüsvay etmək istəyirsən? Zəhra haqlı imiş… Haqlı imiş…

(*Qızının saçlarından tutub döyməyə başlayır... Şaban çox da qarışmır, ancaq yenə də Hüseynin qabağını alır)*

XƏDİCƏ Günahım nədir dədə?

ŞABAN Bir cahillikdir, eləyib ağam… Bağışla!

XƏDİCƏ (*Ağlayır)* Yuxum gəlmədi, gəldim oturdum dədə!

HÜSEYN Hələ danışmağa dili də var… Gecənin yarısı gəbərtdirəcəksən özünü… Kəs! Kəs, it balası, kəs! Gir çadıra, eşşəyin qarnından çıxan!

(*Xədicə öndə, Hüseyn və Zəhra arxada çadıra girirlər...*

*Səlim Rahatlayır... Ağıla doğru gedir... Şaban çadırına doğru yönəlir... Hüseynin öfkəli baxışları altında Xədicə soyunub yatağına girir... Hüseyn bir az tıncıxsa da başını yastığa qoyar-qoymaz yuxuya dalır... Zəhra iyrənərək baxır Hüseynə, uyuması mümkün deyildir.)*

**Ağıl**

*(1-ci ADAM dayanmadan duz atmaqdadır qoyunlara...*

*Duz çuvallarından biri boşalmışdır. Nəzarətçilər yatmış kimi görünürlər. Zahirən, özlərini ayıq göstərmək istəyirlər, guya vəzifələrini yerinə yetirirlər. 1-ci ADAM yorulanda duz atmağı 2-ci ADAM sürdürməkdədir...)*

1-ci ADAM Az qalıb, artıq ikinci çuvalda bitirəcəksiniz… Verdikcə də yeyirsiniz, düşüncəsiz kimi! Qərəzinizmi vardır çobanızla? Söyləyin hə? Qərəzinizmi vardır?

(*SƏLİM girir içəriyə. Səssizcə və əndişəylə izləməkdədir.)*

2-ci ADAM (*Yarıyuxulu 1-ci ADAMa*) Bu nədir sürü ilə danışırsan?

1-ci ADAM Mən atıram düzü onlar yeyir! Deyirəm ki, qərəziniz var mıdır çobanınızla?

2-ci ADAM Heyvanın qoyunu, insanın cahili. Ikisi də eyni qapıya çıxar! Qərəzdən deyil, abdallıqdan yeyərlər duzu!

SƏLİM Səlamünəleyküm!

1-ci ADAM Əleykümsəlam Səlim…

2-ci ADAM Uyumadınmı sən?

SƏLİM Necə uyuyum qardaşlar? Sınağa çəkiləcək adamın gözünə yuxu gedərmi?

1-ci ADAM Bunlara bax, bunlara… Gör necə yeyirlər duzu? Qərəzçilikləri vardır sənə qarşı yoxsa?

SƏLİM Üç quzularını kəsdim bu gün… (*Bükdüyü siqarlardan uzadır)* Çəkirsən?

2-ci ADAM (Alır. Məşəldən yandırır siqareti) Sağ ol!

1-ci ADAM Bax, Səlim qardaş… Get bir az yat… Az qalır səhər olsun. Dincəlməlisən ki, tütəyini yaxşı çalasan… Həm də, üstəlik səni burada görürlərsə söz çıxardarlar qaraağızlılar…

SƏLİM *(Üzgün)* Doğru söyləyirsiniz… Işiniz yüngül olsun…

(*Səlim ümidsiz addımlarla gedir… Dayanır…*

*(SƏLİM:)*

**PEŞİMANAM**

Dedim, boyun əyməyin siz
Kökümüz, kökənimiz bir
Birləşməliyik hamımız!
Getdim, kəsdim quzuları!

Ah, mən nə etdim belə, tanrım?
Gördüyüm iş necə işdir?
Quzuları kəsər isəm
Bu xəyanət deyilmidir?

Qıydım körpə quzulara
Xəyanət etdim soyuma

Ağı verdim analara
Onların ahı yoxmola?

Nəysə, ümid gələcəkdə,
Soyumuz, nəslimiz bir.
Birləşməliyik hamımız
Dəryalara varmaq üçün.

*(Səlim irəlidə oturur…*

*Ümidsiz və yorğun halda yuxulamağa başlar… adamlar duz yedirtməyə davam edirlər.)*

**Kiçik Çay**

*(Axar su ortada. Günəş tam təpədə. Oba xalqı gözləməkdə…*
*Sürü*
*Özləməkdə… Köpəklər gözləməkdə…*
*Hüseyn, Zəhra, Xədicə və Şaban gözləməkdə…*
*Səlim gözləməkdə… Səlim bitkin və məhzun…*
*Sürü və Səlim göz-gözə gəlir…*
*Hamısı da Qızılirmağa tökülməkdə olan axar bir suyun bir sahilindədir…)*

(**Oba xalqı**:)

**OYANIŞ!**

Çoban almasın deyə qızı,
Bütün gecə duzladılar sizi.
Belə buyurdular buyruqlarını
Başa düşdük yapdıqlarını?

Bu həriflərin niyyəti pozuq,
Yazıq olsun çobana yazıq.
Duzu çoban yemədi ki!

Utanmadan atırlar qazıq!

Ey sürü, bu sınaq sizindir!
Duzlanan sizsiniz sabahadək.
Sıxın dizinizi, keçin suyu,
Biz də seyr edək bu gərdişi!!

*(Səssizlik... Gərginlik artaraq sürməkdə...)*
*(Qaraqoyun:)*

## UĞULDA ORMANIM, UĞULDA!

Səlimin bu peşmanlığı
Yalan deyil, bir gerçəkdir!
Sınağa gəlincə dostlar,
Sınaq Səlimin deyildir!

Əl-ələ verib də dostlar,
Qarşı taya keçməliyik!
Sevənləri birləşdirib,
Işimizi görməliyik!

Könül verdik biz bu işə,
Ümidimiz heç bitməsin!
Sudan içmək olurmu heç?
Əməyimiz boş keçməsin!

Rüzgarın əsdiyi yerdə,
Orman, əlbət uğuldar!
Gur çıxsın səsimiz artıq,
Dünya-aləm dinləsin!

*(Əli Ağa və oğlu Məhmət gəlirlər… Hər tərəfdən «Xoş gəldiniz»lər… Səlim və Məhmət göz-gözə gəlirlər. Məhmət dəlici gözlərlə baxır Səlimə. Səlim sanki ümidsiz…*

*Hüseyn əli ilə Səlimə, qarşı tərəfə keçməsini işarə edir…*

*Səlim ümidsizcə Xədicəyə baxır. Qaraqoyun və Sürü bu baxışı tutur… Səlim qarşı taya keçir… Yüksək bir yerdə oturur… Tütəyini çıxarır. Çalmağa başlayır…*

*SÜRÜ və QARAQOYUN dinləməyə başlarlar tütək səsini…*

*Qaraqoyun sürünün arasında dolaşaraq sanki xəbərdarlıq etməkdədir onlara… Sürü axarsuya doğru yüyürür…*

*Növbəsi çatan axarsuyu keçməkdədir suyu içmədən…*

*Axarsuyu keçən qoyun gəlib SƏLİMin yanında durmaqdadır…*

*Hər keçən qoyun, insanları kədərləndirmədə ya da sevindirməkdədir.*

*Ən son keçən Qaraqoyundur…*

*Səlimin yanına gəlib durur Qaraqoyun. Sürü və Qaraqoyun tütəkdən çıxan müsiqini zövqlə dinləməkdədirlər…*

*Əli Ağa və Hüseyn çaşqın… Məhmət əsəbidir. Zəhra pərişan… Xədicə xoşbəxt… Səlim tütəyi endirib ayağa qalxır.)*

1-ci QOCA Bu iş bitmişdir Səlim… Hüseyn Ağanın şərtini yerinə yetirdin… Xədicə sənindir artıq.

SƏLİM Ağam… İzin versən, sürü su içsin…

HÜSEYN İçsinlər

*(Səlim, Qaraqoyuna işarət edir. Sürü suya tərəf qaçır…)*

MƏHMƏT Dədə! Bu iş baş tutmadı, dədə!

ƏLI AĞA Indi bu haqda danışmağın zamanı deyil.

MƏHMƏT Dünya qədər borcu var sənə!

ƏLI AĞA Sus!

MƏHMƏT Xəbərin var idi bu qızı istədiyimdən!

HÜSEYN Bir az tez tərpənsəydin mənim nə sözüm ola bilərdi?

ƏLI AĞA Belə olacağı ağlımıza gəlmədi…

ŞABAN Sözünü tutma, ağam!

ZƏHRA Qoyduğun şərtə əməl eləmə!

HÜSEYN Səhərə qədər götür-qoy elədim, nəticə belə olarsa. Nə edəcəyimi fikirləşdim… Ağzımdan söz bir dəfə çıxıb… Sözümü geri qaytara bilmərəm. Istəsəm də sözümdən qaça bilmərəm! *(Səmimiyyətlə*) Ancaq ikisindən birinin ölümü əngəllər bu işi!...

MƏHMƏT XƏDİCƏnin ölümü yaramaz mənim işimə!

*(Məhmət silahını çıxarıb atəş açır Səlimə. Səlim yatıb hədəfdən qaçır... Panika... Bir qoyun vurulur. Ardınca bir qoyun, yenə bir qoyun... Sürüdəki son quzu da vurulur. Məhmət atəşi davam etdirir. Digər qoyunlar ölülərinə əyilirlər... Sonra da qətiyyətlə Səlimin yanına gəlib iki ayaqları üzərində dikəlirlər... İnsana çevrilirlər... Məhmət atəş etməkdədir artıq... Əli Ağa hirslə şillələyir oğlunu və ardınca Oba xalqı keçirlər çayın o biri üzünə və sevgililərin yanında düzülürlər... Qadınlar başlarındakı örtükləri saçları görünəcək şəkildə düzəldirlər. Suyun bu yanında isə, Əli Ağa, Hüseyn, Məhmət, Şaban, onların adamları, yəni iki Köpək və Zəhra qalırlar...)*

*(Çayın o biri tayındakılar:)*

**DÜYÜNÜMÜZ VAR BIZIM!**

Vur təbilçi təbilinə!
Dünya aləm dinləsin!
Uğuldayan bir ormanıq
Rüzgarların kəsməsin!

Haydı durma Qaraqoyun
Bu gün sənin günündür!
Üflə tütəyi Çobanım
Bu, gələcək düyünündür!

Vur təbilçi təbilinə!

Güm, güm, güm, güm, gümləsin!
Yaban deyildir səsimiz
Dünya aləm dinləsin!

Yüyürənə borcu olan
Uyuyanlar oyansın!
Ən gözəl türkü, yaşamaq
Eşidənlər söyləsin!

Vur təbilçi təbilinə!
Dünya aləm dinləsin!
Uğuldayan bir ormanıq
Küləyimiz kəsməsin!

Vur təbilçi təbilinə!
Güm, güm, güm, güm, gümləsin!
Yaban deyildir səsimiz
Dünya aləm dinləsin!

*(Yenidən söylənir QIZILIRMAQ TÜRKÜSÜ... Daha gur, daha coşqulu...)*
(*Səhnədəkilər:*)

**QIZILIRMAQ TÜRKÜSÜ II**

Yerdən-göydən, dağdan-daşdan
İldırım kimi enərik!
Kiçik sularda böyüyüb
Qızılirmağa vararıq!

Ardımızda tariximiz
Türkülərlə gəlirik!

Axarmı irmaq tərsinə?
Dəryalara da vararıq!

«Sayılmarıq barmaq ilə
Tükənmərik qırmaq ilə»
Bərabərlik olsun deyə
Zülümlərə aşmazmıyıq?

Bəndlər yapıb bu axışı
Asandırmı saxlamaq?
Yatağını dəyişməkmi
Bu axışı saxlayacaq?

Zaman-zaman yenilsək də
Ümidimiz tükənərmi?
İrəlləyən tarixik biz!
Hey dənizlərə baxarıq!

Heyvan deyil insanıq biz
Gələcəyi düşünəriz
«Yarın dodağından qeyri»
Biz hər şeyi bölüşəriz!

Qəm, kədər olsa da fəqət
Qırılmarıq, yıxılmarıq!
İnsan soyu budur əlbət
Qəm-qüssəni biz aşarıq!

İşgəncə, zülm və qandır,
Bitirən bizi durmadan!

Dəmirləşir bədənimiz
Yarınlara vararkən!

Unutmayın, a dostlar
Dəryalara varacağıq!
Savaşsız və istismarsız
Dünyaları quracağıq!

**SON**